HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 14 (805) ■ 13 aprel 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# Prezident İlham Əliyev: «Azərbaycanın ərazi bütövlüyü müzakirə mövzusu ola bilməz»

*Aprelin 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.*

Əvvəlcə Ermənistanın silahlı qüvvələrinin təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olmuş Azərbaycan hərbçilərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. İclasda giriş nitqi ilə çıxış edən dövlətimizin başçısı bildirib ki, bu ayın əvvəlində Ermənistan Azərbaycana qarşı növbəti silahlı təxribat törədib. Təxribatın qarşısı alınıb, düşmənə layiqli cavab verilib. Azərbaycan öz torpaqlarını qoruya, öz hərbi mövqelərini daha da möhkəmləndirə bilib.



Azərbaycan Prezidenti qeyd edib ki, Ermənistan yenə də öz işğalçı siyasətini davam etdirir, sülh istəmir və çalışır ki, danışıqlar prosesi pozulsun: «Bunu deməyə bizdə kifayət qədər əsas var, ilk növbədə, danışıqların 20 ildən çox müddət ərzində aparılması onu göstərir ki, Ermənistan sadəcə olaraq danışıqları sonsuz proses kimi görmək istəyir. Digər tərəfdən, danışıqlarda müəyyən irəliləyiş olan zaman Ermənistan müxtəlif yollarla danışıqları pozmağa cəhd göstərir. Son tarixin nümunələri bunu göstərir. 2014-cü ilin sonlarında Fransa Prezidentinin təşəbbüsü ilə Parisdə Ermənistan və Azərbaycan prezidentlərinin görüşü keçirilmişdir. Hər iki tərəf görüşü müsbət qiymətləndirmişdir. Görüşdən sonra biz danışıqlarda daha da müsbət dinamikanı gözləyirdik. Ancaq o danışıqlardan iki həftə keçməmiş Ermənistan işğal edilmiş torpaqlarda - Ağdam rayonunun ərazisində genişmiqyaslı hərbi təlimlərə başlamışdır. Bu, sırf təxribat xarakterli bir addım idi. Azərbaycan Silahlı Qüvvələri bu təxribata bir neçə gün cavab vermirdi, ancaq ondan sonra Ermənistan silahlı qüvvələri bizim mövqelərimizə hərbi helikopterlərlə hücum çəkmişdir. Azərbaycan Ordusu məcbur olub helikopterin birini vurmuşdur. Bu da Ermənistana bir bəhanə kimi lazım idi ki, yenə də Azərbaycanı təcavüzdə günahlandırsın. Ondan sonra demək olar ki, bir ildən çox müddət ərzində danışıqlar, ümumiyyətlə, aparılmırdı. Minsk qrupunun xahişi ilə keçən ilin dekabrında Azərbaycan və Ermənistan prezidentləri görüşdülər, amma o görüşün heç bir nəticəsi olmamışdır. Vasitəçilər çalışırlar ki, məsələ öz həllini tapsın. Bilirsiniz ki, Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa rəhbərliyi səylər göstərirlər, bəyanatlar verirlər. O cümlədən status-kvo haqqında çox dəyərli bəyanatlar verilir ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Ancaq Ermənistan buna məhəl qoymur».

Bütün dünya ölkələrinin, o cümlədən, həmsədr dövlətlərin - ABŞ, Rusiya, Fransanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan edən dövlətimizin başçısı Ermənistanın hər an əl atdığı təxribatların qarşısının alınacağını, Azərbaycanın öz torpaqlarını müdafiə edəcəyini diqqətə çatdırıb: «Bizim başqa dövlətin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verəsi deyilik. Heç vaxt imkan verməyəcəyik ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın». Münaqişənin sülh yolu ilə, siyasi yollarla öz həllini tapmasını istədiyimizi bəyan edən Azərbaycan Prezidenti danışıqlar prosesinə sadiqliyimizi xatırladıb, məsələnin həllinin çox sadə - erməni silahlı birləşmələrinin işğal edilmiş torpaqlardan çıxmalı olduğunu bildirib: «Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıtmalıdırlar, ondan sonra regionda sülh və təhlükəsizlik yarana bilər. O ki qaldı xalqların öz müqəddəratını təyin etməsi prinsipinə, bu prinsip ölkələrin ərazi bütövlüyünü pozmamalıdır və Helsinki Yekun Aktında məhz bu ifadələr öz əksini tapır. Bütün münaqişələr ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır».

**Davamı 2-ci səhifədə**

# Azərbaycanla BMT arasında fəal əməkdaşlıq mövcuddur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi Qulam İsakzaini qəbul edib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İsakzai etimadnamə məktubunu Prezident İlham Əliyevə təqdim edib. Prezident İlham Əliyev Azərbaycanın BMT-nin bir çox təsisatları ilə sıx əlaqələr qurduğunu, ölkəmizin təşkilat ilə çox fəal əməkdaşlıq həyata keçirdiyini deyib. Bakının BMT-nin bir neçə mühüm tədbirinə ev sahibliyi etdiyini bildirən dövlətimizin başçısı Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının təsisatlarında iştirakını uğurla davam etdirəcəyinə ümidvar olduğunu deyib.

Son iyirmi il ərzində təmsil etdiyi qurum ilə Azərbaycan arasında səmərəli əməkdaşlıq həyata keçirildiyini bildirən Qulam İsakzai BMT-nin Azərbaycan hökuməti ilə mövcud olan tərəfdaşlıq əlaqələrini gücləndirmək niyyətində olduğunu deyib. O, ölkəmizdə gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını bildirib, yoxsulluğun azaldılması, infrastrukturun yenidən qurulması istiqamətində əldə olunan nailiyyətlərin önəmini vurğulayıb. Ötən səfərindən keçən dövr ərzində ölkəmizdə mühüm dəyişikliklərin şahidi olduğunu qeyd edən Qulam İsakzai bu inkişafa ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin rəhbərliyi altında nail olunduğunu vurğulayıb. Təşkilatın ölkəmiz ilə əməkdaşlığı davam etdirməkdə maraqlı olduğunu bildirən Qulam İsakzai BMT-nin Azərbaycanın dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsi işinə dəstək verə biləcəyinə ümidvar olduğunu deyib.

Prezident İlham Əliyev ölkəmiz ilə BMT arasında çox fəal əməkdaşlıq əlaqələrinin olduğunu məmnunluqla qeyd edib. Yoxsulluğun azaldılmasının ən böyük nailiyyətlərimizdən biri olduğunu deyən dövlətimizin başçısı bütün ölkə miqyasında yoxsulluğun tamamilə aradan qaldırılması istiqamətində iş aparıldığını, məşğulluğun yeni mexanizmlərinin təqdim olunduğunu, sosial proqramların həyata keçirildiyini bildirib, görülən tədbirlərin yoxsulluğun aradan qaldırılması işinə böyük töhfə verəcəyini qeyd edib. Qarşıya qoyulmuş məqsədlərə qısa müddət ərzində nail olunması üçün təşkilatın ölkəmizin müvafiq qurumları ilə birgə fəaliyyət göstərməsinin, Azərbaycanın bu istiqamətdə irəli sürdüyü təşəbbüslərin dəstəklənməsinin vacibliyini vurğulayıb. Prezident İlham Əliyev Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunmasının ölkəmiz üçün yaxşı təcrübə olduğunu diqqətə çatdırıb. Dövlətimizin başçısı BMT-nin Sivilizasiyalar Alyansının bu yaxınlarda Bakıda keçiriləcək VII Qlobal Forumunun əhəmiyyətinə toxunaraq Azərbaycanın dünyaya təqdim olunması, eyni zamanda, ölkəmizin inkişaf sahəsində qazandığı təcrübəni bölüşməsi baxımından tədbirin önəmini qeyd edib.

Prezident İlham Əliyev bir daha BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi Qulam İsakzaini bu münasibətlə təbrik edib və ona fəaliyyətində uğurlar arzulayıb.

# Rusiya münaqişənin sülh yolu ilə həllində maraqlıdır

Aprelin 8-də Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedev ölkəmizə səfər edib. Həmin gün Prezident İlham Əliyevin Dmitri Medvedev ilə təkbətək görüşü olub.



Dmitri Medvedevin ölkəmizə səfərinin Rusiya ilə Azərbaycan arasında dostluq, mehriban qonşuluq münasibətlərinin daha da möhkəmlənməsi işinə xidmət edəcəyini vurğulayan dövlətimizin başçısı hazırkı əlaqələrin dinamik, intensiv inkişaf edən münasibətlərimizin çox geniş gündəliyi strateji tərəfdaşlıq səviyyəsinə çatdığını bildirib. Azərbaycan Prezidenti bildirib ki, bu səfər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zonasında vəziyyətin kəskinləşməsi dövrünə düşüb: «Təəssüf ki, bu münaqişə illər boyu öz həllini tapmayıb və biz erməni tərəfin silahlı provokasiyaları ilə vaxtaşırı üzləşirik. Bu ayın əvvəlində ermənilər tərəfindən növbəti bu cür cəhd göstərilib. Azərbaycanın yaşayış məntəqələri atəşə tutulub, dörd yüzdən çox ev zədələnib, insan tələfatı olub, o cümlədən dinc sakinlər arasında da ölənlər var. Hərbi provokasiyaların qarşısını almaq, atəşkəs rejimini bərpa etmək üçün Azərbaycan tərəfi cavab tədbirləri görməyə məcbur olub. Vəziyyətin gərginliyinin səngidilməsi üçün vaxtında həyata keçirilmiş çox fəal tədbirlərə görə Rusiya rəhbərliyinə təşəkkürümü bildirmək istərdim. Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin mənə və Ermənistan prezidentinə zəng vurub. Rusiya Federasiyası Baş Qərargahının rəisi də iki ölkənin qərargah rəisləri ilə əlaqə saxlayıb. Onların vasitəçilik səyləri sayəsində atəşkəs bərpa olunub, hərçənd qarşı tərəf buna heç də həmişə riayət etmir. Bütövlükdə, son günlərdə gərginliyin səngidiyini görürük və hesab edirik ki, bu, müsbət dinamikadır. Qeyd etməliyəm ki, Azərbaycan bu münaqişənin sülh və siyasət yolu ilə, beynəlxalq hüququn norma və prinsipləri əsasında, BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qərarlarına uyğun olaraq tənzimlənməsinin tərəfdarıdır».

Rusiya hökumətinin başçısı Dmitri Medvedev hər iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin mövcud olduğunu, iqtisadi, humanitar sahələrdə xeyli birgə layihələrin, müzakirə edildiyini diqqətə çatdırıb: «Buna görə, aydındır ki, bu səfərdən həmin məqsədlər üçün maksimum dərəcədə faydalanmaq lazımdır. Əlbəttə ki, indi vəziyyət o qədər də sadə deyil. Siz Ermənistan ilə Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsinin kəskinləşməsini xatırlatdınız. Gizlətmirəm ki, əlbəttə, bu məsələ bizi ciddi narahat edir. Ona görə ki, bizim üçün hər iki dövlətlə münasibətlər son dərəcə vacibdir. Bütün bu müddətdə biz Minsk qrupunun iştirakçısı, cavabdeh dövlət, Təhlükəsizlik Şurasının daimi üzvü kimi Birləşmiş Millətlər Təşkilatı çərçivəsində formalaşdırılmış prosedurlara, digər yanaşmalara tərəfdarıq. Ümid edirik ki, hazırda yaranmış sülh uzunmüddətli olacaq və tərəflər tənzimləmə məsələlərinin müzakirəsini danışıqlar masası arxasında davam etdirə biləcəklər».

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyası Hökumətinin Sədri Dmitri Medvedevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. Görüşdə Rusiya ilə Azərbaycan arasında tərəfdaşlığın möhkəmlənməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələləri müzakirə edilib.

Dahas onra Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Hökumətinin Sədri Dmitri Medvedev mətbuata bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsinə diqqət çəkərək bildirib ki, təəssüf ki, bu məsələ uzun illər boyu öz həllini tapmır: «Azərbaycan torpaqları uzun illərdir ki, işğal altındadır. İyirmi ildən çoxdur ki, Azərbaycanın həm Dağlıq Qarabağ bölgəsi, həm də onun ətrafındakı yeddi rayonu işğal altındadır. Oradan bütün azərbaycanlı əhali qovulub, bütün evlər, tarixi abidələr dağıdılıb. Təkcə münaqişə zonasından 700 mindən çox daxili köçkünümüz var. Ermənistandan olan 250 mindən çox qaçqını da buraya əlavə etsək, 1994-cü ildə atəşkəs barədə razılaşma əldə ediləndə bizdə qaçqınların və daxili köçkünlərin adambaşına sayı ən yüksək göstəricilərdən birini təşkil edirdi. Münaqişənin tənzimlənməsi mexanizmləri, BMT Təhlükəsizlik Şurasının işğalçı erməni qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən 4 qətnaməsi var, təəssüf ki, onlar yerinə yetirilmir». Dövlətimizin başçısı qeyd edib ki, status-kvonun dəyişdirilməsi, Azərbaycan ərazilərinin işğaldan azad edilməsinin başlanması münaqişənin tammiqyaslı tənzimlənməsi üçün əsas şərtdir. Bu, baş verən kimi regionda sülh, əmin-amanlıq, əməkdaşlıq bərqərar olacaq. Bu, regionun bütün ölkələrinin xeyrinə olacaq.

Rusiya Hökumətinin Sədri Dmitri Medvedev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün danışıqların, sülh yolu ilə nizamlanmanın heç bir alternativinin olmadığını diqqətə çatdırıb. Bildirib ki, tərəflər arasında əldə olunmuş atəşkəs davamlı, uzunmüddətli xarakter daşımalı, danışıqların yenidən başlanması və son illərdə formalaşmış yanaşmalar çərçivəsində irəliləmək, tərəflərin mövqelərini yaxınlaşdırmaq, kompromislər axtarmaq lazımdır.

# Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi

*Aprelin 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində «AITF-2016» XV Azərbaycan Beynəlxalq turizm və səyahətlər və «HOREX Caucasus-2016» X Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri ilə tanış olublar.*

Dövlətimizin başçısına bildirilib ki, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Turizm Assosiasiyası, Dünya Turizm Təşkilatı və Asiya-Sakit Okean Turizm Assosiasiyasının dəstək verdiyi sərgidə 40 ölkədən 200-dən artıq şirkət iştirak edir. Bu sərgi regionda ölkə, şirkət və turizm marşrutlarının sayı üzrə bütün digər turizm sərgiləri arasında birinci yeri tutur.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ölkəmizin turizm regionlarını əks etdirən ekspozisiyalara baxıblar.

Qeyd edilib ki, daxili turizm Azərbaycanda əsas təmayül olaraq qalır. Hazırda diqqət paytaxtla yanaşı, bölgələrdə də geniş turizm şəbəkəsinin yaradılmasına yönəldilib. Naxçıvan Muxtar Respublikası da daxil olmaqla ölkəmizin malik olduğu təbii gözəllikləri, ecazkar təbiəti və digər istiqamətləri nümayiş etdirmək baxımından sərgi bir çox özəllikləri ilə seçilir. Qax, Qəbələ, Gəncə, Zaqatala, İsmayıllı, Lənkəran, Mingəçevir, Masallı, Sumqayıt və digər regionların ənənəvi ekspozisiyalarında Azərbaycanın daxili turizm potensialı təqdim edilir, milli mədəniyyətimizin zəngin nümunələri qonaqlara nümayiş olunur. Qarabağ regionunun gözəlliyini və turizm imkanlarını nümayiş etdirən ənənəvi stend də sərgidə yer alıb. Bakıda keçiriləcək «Formula-1» Avropa Qran-prisinin təşkilatçısı «Bakı Şəhər Halqası» Əməliyyat Şirkəti də sərgidə ayrıca stendlə təmsil olunur.

Prezident İlham Əliyev xarici ölkələrin milli pavilyonları ilə də tanış olub. Bildirilib ki, keçirildiyi illər ərzində Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgilərində dünyanın 40-dan çox ölkəsindən təxminən 2200 şirkət iştirak edib. Bu il tibbi və sağlamlıq turizmi istiqamətlərini təmsil edən iştirakçıların sayı əhəmiyyətli dərəcədə artıb. Sərgidə Azərbaycan, Belarus, Gürcüstan, İtaliya, Latviya, Xorvatiya, Çexiya, Rusiya, Türkiyə, Ukrayna və digər ölkələri təmsil edən şirkətlər, o cümlədən tibb mərkəzi, sağlamlıq ocağı və sanatoriyalar müalicə-sağlamlıq və SPA turizmi üzrə ən son nailiyyətləri təqdim edirlər.



# Prezident İlham Əliyev: «Azərbaycanın ərazi bütövlüyü müzakirə mövzusu ola bilməz»

**Əvvəli 1-ci səhifədə**

Giriş nitqində 2016-cı ilin birinci rübündə iqtisadi islahatların daha da sürətlə aparıldığına diqqət çəkən Prezident İlham Əliyev bu istiqamətdə çox fəal iş aparıldığını, biznes mühitinin yaxşılaşdırılması, ixrac potensialımızın artırılması, xarici sərmayənin Azərbaycana cəlb edilməsi, yerli istehsalın artırılması ilə bağlı mühüm qərarlar qəbul edildiyini diqqətə çatdırıb. Ötən 3 ayda qeyri-neft sənayesinin artdığını deyən dövlətimizin başçısı, eyni zamanda, qeyri-neft sektorunun iqtisadiyyatın əsas hissəsini təşkil etdiyini qeyd edib. Birinci rübdə 37 min yeni iş yeri yaradıldığını xatırladan Azərbaycan Prezidenti onun 31 mininin daimi iş yeri olduğunu, əhalinin məşğulluğunun təmin olunması və sosial siyasətlə bağlı işlərin diqqətdə saxlanıldığını xatırladıb: «Bu il Azərbaycanda maaşlar və pensiyalar artırılıb, 10 faiz artım var. Bu da nadir hadisələrdən biridir. Adətən, hətta neft və qazla zəngin olmayan ölkələr ya maaşları dondururlar, ya kəsirlər, ya da maaşların verilməsində problemlər yaşanır. Ancaq biz dünyada hökm sürən bu böhrana baxmayaraq, maaşları və pensiyaları artırmışıq. Digər sosialyönümlü addımlar atılır, o cümlədən yeni təşəbbüslər, iş yerlərinin yaradılmasının yeni formaları artıq işə düşür. Əminəm ki, Azərbaycanda işsizliyin səviyyəsi həmişə olduğu kimi, çox aşağı səviyyədə olacaqdır».

Birinci rübdə digər sahələrdə də çox fəal iş aparıldığını deyən Prezident İlham Əliyev Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması, ölkəmizin tranzit imkanlarının artması və büdcənin bundan çox böyük iqtisadi mənfəət götürəcəyini diqqətə çatdırıb: «Şərq-Qərb nəqliyyat dəhlizinin yaradılması üçün bütün işlər görülür. Biz burada da yenə də üçtərəfli, amma digər formatda işləyirik - Azərbaycan-Gürcüstan-Türkiyə formatında. Mənim keçən ilin sonunda Gürcüstana, bu il Türkiyəyə səfərlərim bu dəhlizin yaradılması üçün çox faydalı olmuşdur. Baxın, Azərbaycan yenə də iki dəhlizin ortasındadır. Əgər bizim qonşu ölkələrlə çox müsbət dostluq, tərəfdaşlıq əsasında qurulmuş münasibətlərimiz olmasaydı, bu layihələrin heç biri reallaşmazdı. Mən həmişə demişəm ki, qonşularla münasibətlərimiz bizim üçün çox önəmlidir. Bizim Ermənistandan başqa heç bir qonşu ölkə ilə problemimiz yoxdur. Əksinə, bizim qonşularla əlaqələrimiz gündən-günə artır, güclənir və bu, həm təhlükəsizlik, həm sabitlik, iqtisadi inkişaf, əməkdaşlıq üçün əsas şərtdir».

«Cənub Qaz Dəhlizi»nin icrasının cədvəl üzrə getdiyini, lazımi investisiyaların qoyulduğunu, ölkələr və şirkətlər arasındakı əlaqələndirmənin yüksək səviyyədə olduğunu xatırladan dövlətimizin başçısı ölkəmizin beynəlxalq əməkdaşlığın genişlənməsi, regionda sülh və təhlükəsizliyin möhkəmlənməsi, multikulturalizm, sivilizasiyalararası dialoqun aparılmasına geniş töhfə verdiyini bildirib.

İclasda yekun nitqi söyləyən Prezident İlham Əliyev azad biznesə dövlət dəstəyinin artırılacağı, biznes mühitinin yaxşılaşdırılması üçün sahibkarlara daha da böyük dəstək istiqamətində çox önəmli addımlar atıldığını qeyd edib, sahibkarlıq sahəsində yoxlamalarla bağlı aparılan işlərin mühüm nəticə verdiyini diqqətə çatdırıb: «2016-cı ilin birinci rübü ərzində sahibkarlıq subyektlərində vergi istisna olmaqla, cəmi 34 yoxlama keçirilmişdir. Müqayisə üçün deyim ki, 2015-ci ilin birinci rübündə 19 min 300 yoxlama keçirilmişdir. Bu il isə 34. Bu rəqəmlərə şərh verməyə ehtiyac yoxdur. Beləliklə, Azərbaycanda azad sahibkarlığın, azad rəqabətin inkişafı sürətlə gedir».

Dövlətimizin başçısı iqtisadi sahədə şəffaflığın təmin edilməsi nəticəsində Azərbaycanda sahibkarlığın daha da sürətlə inkişaf edəcəyini, xarici sərmayə qoyuluşlarının həcminin artacağını bildirib: «Çünki xarici sərmayələri cəlb etmək üçün hüquqi baza, şəffaf iqtisadi və maliyyə sistemi olmalıdır və qanunun aliliyi təmin edilməlidir. Əgər biz başqa ölkələrin təcrübəsinə baxsaq, görərik ki, sürətli inkişaf yoluna qədəm qoymuş ölkələr bu yolla gediblər və beləliklə, öz ölkələrini xarici sərmayə üçün çox cəlbedici ölkələrə çevirə biliblər. Bu gün istənilən ölkə xarici sərmayəni cəlb etməyə çalışır, hətta böyük maliyyə resurslarına malik olan ölkələr. Çünki bu, həm əlavə vəsaitdir, maliyyə resursudur, həm də əlavə imkanların yaradılmasıdır və biz də bu yolla getməliyik».

İnvestisiyaların təşviqi, bank sektorunun möhkəmlənməsi və sağlamlaşdırılması üçün addımlar atıldığını xatırladan Azərbaycan Prezidenti maliyyə nəzarətinin gücləndirilməsi, milli valyutaya inamın daha da artırılması istiqamətində görülən işlərin öz müsbət nəticələrini verəcəyinə əminliyini ifadə edib. Regionlarda əsasən yeni ixracyönümlü istehsal sahələrinin, hər bir rayonda sənaye zonalarının yaradılacağı, bölgələrdə işsizliyin azaldılması və maddi imkanları aşağı olan aztəminatlı əhalinin mənzil probleminin həlli üçün bütün şəhərlərdə, rayon mərkəzlərində sosial mənzillərin tikintisinə başlanılacağı diqqətə çatdırılıb.

Kənd təsərrüfatının inkişafının ölkəmiz üçün prioritet olduğunu deyən dövlətimizin başçısı birinci rübdə Azərbaycanda kənd təsərrüfatının istehsalının 2,7 faiz artdığını, ərzaq təhlükəsizliyinin tam şəkildə təmin edilməsi üçün torpaqlardan istifadənin genişləndirilməsini, fermerlərə verilən subsidiyalarda yeni yanaşmaların tətbiqini, hər bölgə, rayon üzrə xüsusi bir subsidiya siyasətinin aparılmalı olduğunu qeyd edib: «Məxsusi olaraq hər bir zona üçün xüsusi kənd təsərrüfatı məhsulları yetişdirilməlidir və hər bir rayonun, hər bir iqtisadi zonanın öz subsidiya paketi olmalıdır. Belə olan halda, kənd təsərrüfatı ixtisaslaşmış şəkildə və daha böyük səmərə ilə inkişaf edəcək. Biz kənd təsərrüfatı məhsullarının ixracını daha da sürətləndirməliyik. Bu məqsədlə təşviq sistemi işə salınır. Bu, bizim üçün birinci təcrübədir. Xaricə öz məhsulunu çıxaran qurumlara, şirkətlərə dövlət kompensasiya verəcəkdir».

Prezident İlham Əliyev aqrar sahədə əsas ənənəvi sahələr olan yüngül sənaye, pambıqçılıq, barama və ipəkçilik, üzümçülük, tütünçülük, çayçılıq və digər sahələrin inkişaf etdirilməsi üçün lazımi tədbirlər görülməsini, müvafiq qurumların və fermerlərin bu sahənin inkişafında maraqlı olmalarını diqqətə çatdırıb. Qeyd edib ki, həmin sahələrin inkişafı xarici ölkələrə mal ixracının artmasında mühüm rol oynaya və respublikamıza yüksək valyuta gətirə bilər.

# Vergi Apelyasiya Şurasında...

2016-cı ilin I rübü ərzində Vergilər Nazirliyinin Vergi Apelyasiya Şurasının icraatına 38 vergi ödəyicisi üzrə 48 müraciət daxil olub. Baxılmış 43 müraciətin 29-u səyyar vergi yoxlamaları, 9-u kameral vergi yoxlamaları, 3-ü operativ vergi nəzarətinin nəticələri, 2-si tətbiq edilmiş maliyyə sanksiyaları ilə bağlı olub. Qalan 5 müraciətə sonrakı dövrdə baxılması nəzərdə tutulur.

Şurada baxılaraq müvafiq qərarlar qəbul edilmiş müraciətlərdən 21-i vergi qanunvericiliyinin pozulmasında vergi ödəyicisinin təqsirinin olmasında aradan qaldırılmaz şübhələrin mövcudluğu, vergi ödəyicisinin dövlət büdcəsinə ödənişlər etdiyi, işin digər halları nəzərə alınaraq tam, 5 müraciət isə qismən təmin edilib. Eyni hal üzrə iddia ərizələrinə məhkəmə qaydasında baxıldığı üçün 11 müraciətin icraatına «İnzibati icraat haqqında» Qanunun 72.2-ci maddəsi rəhbər tutularaq xitam verilib. Bir müraciət vergi ödəyicisinin ərizəsi əsasında geri götürüldüyü üçün «İnzibati icraat haqqında» Qanunun 75.1.4-cü maddəsinə əsasən baxılmadan saxlanılıb. Bir müraciət vergi ödəyicisi ilə Bakı Şəhər İcra Hakimiyyəti arasında bağlanmış müqavilə qüvvədə olduğu dövr üzrə hesablanmış torpaq icarə haqları əsaslı olduğundan, təmin edilməyib.

Şuranın eyni məzmunlu müraciətlər üzrə müvafiq qərarları olduğu üçün 3 müraciətlə bağlı vergi ödəyicilərinə izahedici məktublar göndərilib.

Vergilər Nazirliyinin auditin təşkilinə nəzarət edən idarəsindən daxil olmuş daha bir müraciət isə onun predmetinin aradan qalxdığı nəzərə alınaraq icraatdan çıxarılıb.

Vergi orqanı əməkdaşları tərəfindən vergi ödəyicilərində vergi nəzarəti tədbirləri və vergi yoxlamaları keçirilən zaman yol verilmiş nöqsanların gələcəkdə təkrarlanmaması, Vergi Məcəlləsinin tələblərinə tam əməl edilməsi və sahibkarlığın təşviqinin prioritet məsələlərdən biri olmasının daim diqqətdə saxlanılması, vergi ödəyicilərinin qanuni tələblərinin təmin edilməsi, bununla yanaşı, dövlət büdcəsinə vergiləri ödəməkdən yayınan vergi ödəyiciləri barədə Vergi Məcəlləsində nəzərdə tutulmuş tədbirlərin görülməsi məqsədilə Şuranın qərarları Vergilər Nazirliyinin aidiyyəti struktur vahidlərinə və bölmələrinə göndərilib.

Şurada qəbul edilmiş qərarlar barədə məlumatların kütləvi informasiya vasitələrində işıqlandırılması təmin edilib.

# Vergilər Nazirliyində görüş



*Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyev Vergilər Nazirliyində İsrail Dövlətinin Jurnalistlər Birliyinin nümayəndə heyəti ilə görüşüb.*

Nazir müavini qonaqları salamlayaraq, Azərbaycanın bütün dünyada dünyəvi, sülhpərvər və tolerant ölkə kimi tanındığını, digər xalqların milli-mənəvi dəyərlərinə hər zaman hörmətlə yanaşdığını qeyd edib. O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkənin tolerantlıq siyasətinin bariz təzahürü kimi, 2016-cı ili ölkəmizdə «Multikulturalizm ili» elan etdiyini qonaqların diqqətinə çatdırıb. Qeyd edilib ki, Azərbaycan vətəndaşları olan və cəmiyyətimizin vacib tərkib hissəsi hesab edilən yəhudi icması, eləcə də İsraildəki Azərbaycan icması ölkələrimiz arasında əlaqələrin inkişafında və möhkəmləndirilməsində mühüm rol oynayır. Nazir müavini ölkə başçısı tərəfindən aparılan uğurlu siyasət nəticəsində qeyri-neft sektorunun sürətli inkişafı, iqtisadiyyatın şaxələndirilməsi, aparılan vergi islahatları, Azərbaycana sərmayə qoyuluşu və təşviqi ilə bağlı imkanlar və bu sahədə vergi qanunvericiliyində 2016-cı il ərzində edilmiş mühüm dəyişikliklər barədə qonaqlara məlumat verib.

İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının nümayəndəsi, nümayəndə heyətinin rəhbəri Aleksandr Şapiro Suliman səmimi qəbula görə minnətdarlığını bildirib və Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib, Assosiasiya tərəfindən görülən işlər barədə məlumat verib.

İ.Vəliyev Azərbaycan Respublikasında vergi mühiti və xarici investorlar üçün yaradılan şərait barədə jurnalistlərin suallarını cavablandırıb, ölkəmizdə vergi inzibatçılığının təkmilləşdirilməsi, avtomatlaşdırılması, vergi ödəyicilərinə göstərilən elektron xidmətlər, biznesə başlamaq üçün qeydiyyat prosedurlarının elektronlaşdırılması və asanlaşdırılması ilə bağlı geniş məlumat verib.

Görüşdə Azərbaycanla İsrail arasında tarixə əsaslanan dostluq münasibətlərinin gələcəkdə də davam edəcəyinə, iki ölkə arasında iqtisadi sahədə əməkdaşlığın daha da inkişaf edəcəyinə əminlik ifadə olunub və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Şikayət təmin edilmədi

Vergilər Nazirliyinin Vergi Apelyasiya Şurası «Everest.TT» MMC-nin ona muzdlu işlə əlaqədar kameral qaydada hesablanmış gəlir vergisi haqqında şikayətinə baxıb.

Cəmiyyətin direktoru Elçin Babayev 6 saylı Ərazi Vergilər İdarəsi tərəfindən 2015-ci il 12 noyabr tarixində 2014-cü ilin 2-ci rübü üçün dəqiqləşdirilmiş «Sadələşdirilmiş verginin bəyannaməsi»nin muzdlu işlə əlaqədar gəlir vergisinin hesablanması hissəsi ilə əlaqədar kameral qaydada hesablanmış əlavə vergi ilə razılaşmadığını bildirib və hesablanmış verginin silinməsini xahiş edib.

Şikayətin araşdırılması zamanı müəyyən edilib ki, vergi ödəyicisi təmir-tikinti fəaliyyəti ilə məşğul olur və 2014-cü ilin 2-ci rübü üzrə təqdim edilmiş sadələşdirilmiş vergi bəyannaməsinin muzdlu işlə əlaqədar verginin hesablanması bölməsində rübün hər ayında 1 işçi üzrə 150 manat aylıq əməkhaqqı ödənildiyini göstərib və muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan 1,96 manat məbləğində vergi hesablayıb. Bu səbəbdən, vergi orqanı tərəfindən vergi ödəyicisinə «Kameral vergi yoxlaması üçün zəruri olan sənədlərin (məlumatların) tələb edilməsi haqqında» uyğunsuzluq məktubu göndərilib və yaranmış kənarlaşma ilə bağlı müvafiq dövr üçün dəqiqləşdirilmiş bəyannamənin və ya əsaslandırılmış izahat məktubunun təqdim edilməsi təklif olunub.

Elçin Babayev izahatında «ZİRVƏ-E» MMC, «TEXNO.SAB» MMC, «ZİRVƏ-BT» MMC, «GRANDCOLD» MMC, «LİDER TT» MMC, «KASPİ-TN» MMC, «E-AVRO» MMC, «NİHAD-EB» MMC və «Şahin-VT» MMC-nin təsisçisi və rəhbəri olduğunu və belə çox sayda hüquqi şəxs yaratmaqda məqsədinin ƏDV qeydiyyatına düşməkdə istəməməsi ilə izah edib. Bununla da o, ƏDV məqsədləri üçün qeydiyyata alınmaqdan və vergidən yayındığını etiraf edib.

Bundan əlavə, müxtəlif təşkilatlarla tikinti materialları üçün müqavilə bağladığını, bank hesablarından çıxarılmış xərcləri təsdiq edən sənədlərin təsdiq olunmuş surətlərini (müqavilə, qaimə-faktura, kassa mədaxil və məxaric orderi, təhtəlhesab şəxsin avans hesabı və sair sənədlər) təqdim edəcəyini bildirən E.Babayev həmin məbləğlərin faktiki məsrəfləri barədə təsdiqedici xərc sənədlərini, görülmüş işlərin rəhbərlik etdiyi təşkilatın öz işçi qüvvəsi və ya cəlb olunmuş podratçı hesabına həyata keçirilməsi barədə vergi orqanına heç bir məlumat təqdim etməyib.

Vergi Apelyasiya Şurasının iclasında aparılan müzakirələr və qanunvericiliyin tələbləri, eləcə də şikayət üzrə işin faktiki halları, gətirilmiş dəlillər, toplanmış materiallar və sübutlar nəzərə alınmaqla «Everest.TT» MMC-nin şikayətinin təmin edilməməsi barədə qərar qəbul olunub və 6 saylı Ərazi Vergilər İdarəsinə vergi ödəyicisi tərəfindən xeyli miqdarda vergilərin dövlət büdcəsinə ödənilməkdən yayındırılması əməlinə hüquqi qiymət verilməsi üçün iş üzrə materialların Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilməsi tapşırılıb.

# Vergilər Nazirliyi qapıları ictimaiyyətin üzünə açdı



Aprelin 6-da Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentində (BVD) KİV nümayəndələri üçün «Açıq qapı günü» keçirilib. Jurnalistlər əvvəlcə departamentin yenidən qurulmuş və genişləndirilmiş Vergi ödəyicilərinə xidmət mərkəzi ilə tanış olublar. Departamentin şöbə rəisi Ramil Şəkərov KİV nümayəndələrinə mərkəzin əsas fəaliyyət istiqamətləri, iş prinsipləri və s. barədə ətraflı məlumat verib. Bildirib ki, xidmət mərkəzi yenidən qurularaq genişləndirilib, eyni vaxtda vergi ödəyicilərinə xidmət göstərilən yerlərin sayı 27-ə çatdırılıb və mərkəz lazımi maddi-texniki baza ilə təmin olunaraq vergi ödəyicilərinin istifadəsinə verilib: «Gün ərzində xidmət mərkəzinə 300-dən çox vergi ödəyicisi müraciət edir. Onlara vergi qanunvericiliyi və onun tətbiqi barədə məlumat və izahatlar verilir, qüvvədə olan vergilər, onların hesablanması və ödənilməsi qaydaları, vergi ödəyicilərinin və vergi orqanlarının hüquq və vəzifələri, vergi qanunvericiliyinin tətbiqi məsələləri, vergi bəyannamələrinin təqdim olunma müddətləri, vergi güzəştlərindən istifadə edilməsi, vergi borcu haqqında ətraflı məlumatlar verilir, mövcud olan bütün vergi xidmətləri göstərilir».

Qeyd edilib ki, burada mobil nömrə vasitəsilə identikləşdirilən, asanlığı və rahatlığı ilə fərqlənən, vergi ödəyicisinin məlumatlarının təhlükəsizliyinə xidmət edən «ASAN imza»nın alınmasında da əməli kömək göstərilir. Müraciət edən şəxslərin məmnunluğunu və rahatlığını təmin etmək məqsədilə mərkəz növbə, qeydiyyat, videonəzarət, səsyazma və qiymətləndirmə sistemləri ilə təchiz olunub. Xidmət mərkəzinin girişində elektron növbə terminalı quraşdırılıb ki, bu da vergi ödəyicilərinə xidmətin təhlil əsasında qurulmasına imkan yaradır.

Sonra Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxslərinin KİV nümayəndələri ilə görüşü keçirilib. Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov qeyd edib ki, «açıq hökumət» prinsiplərinin təşviqi istiqamətində görülən tədbirlərin davamlılığının təmin olunması, dövlət orqanlarının fəaliyyətinin bu prinsiplərə uyğunlaşdırılması, qərarların qəbulu prosesində ictimaiyyətin iştirakının genişləndirilməsi məqsədilə Vergilər Nazirliyi tərəfindən müxtəlif sahələr üzrə mütəmadi olaraq «Açıq qapı günləri» təşkil edilir və bu tədbir də həmin silsilədəndir.

Sahib Ələkbərov vergi sistemində aparılan islahatlar, həyata keçirilən yeniliklər və Vergilər Nazirliyində son aylar aparılmış struktur və kadr dəyişiklikləri barədə KİV nümayəndələrinə ətraflı məlumat verərək qeyd edib ki, yaranmış yeni iqtisadi şəraitə uyğun olaraq, biznes mühitinin daha da yaxşılaşdırılması və vergi ödəyicilərinin fəaliyyətinin genişləndirilməsi üçün həm qanunvericilik səviyyəsində, həm də nazirliyin öz səlahiyyətləri çərçivəsində müvafiq addımlar atılıb, ölkədə vergi yükü azaldılıb, vergi inzibatçılığının çevikliyi təmin edilib, kiçik sahibkarlıq subyektlərində səyyar vergi yoxlamaları və üç istiqamət istisna olmaqla, əksər operativ nəzarət tədbirləri dayandırılıb. Bütün bunlar biznes mühitinin səmərəliliyinə, vergi ödəyicilərindən daxil olan şikayətlərin azalmasına da öz müsbət təsirini göstərib.

Nazir müavini bildirib ki, Azərbaycan hazırda «postneft erası» deyilən dövrə qədəm qoyub: «Keçən il Vergilər Nazirliyinin xətti ilə büdcəyə 7 milyard 118 milyon manat vəsait daxil olub və onun 30 faizə yaxını neft-qaz sektorunun hesabına idi. 2016-cı il üçün parlament tərəfindən təsdiq olunmuş proqnozlarda isə neft hesabına büdcəyə vergi daxilolmaları cəmi 23 faiz həcmində proqnozlaşdırılıb. Birinci rübün nəticələrinə görə, Vergilər Nazirliyi dövlət büdcəsinin icrası ilə bağlı proqnoz tapşırığına 101,4% əməl edib. Daxilolmaların 78,9 faizi qeyri-neft sektorunun hesabına təmin edilib»

Vergi sistemində mövcud olan problemlərdən söz açan Sahib Ələkbərov diqqətə çatdırıb ki, əhalidə vergi mədəniyyətinin istənilən səviyyəyə çatdırılması, vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin olunması üçün ciddi tədbirlər görülür və bundan sonra da görüləcək. Vergi ödəyiciləri tərəfindən vergi uçotunun aparılmasında şəffaflığın təmin olunması məqsədilə son bir ay ərzində Bakıda və regionlarda istehsal və ticarət sektorunda çalışan sahibkarlarla çoxsaylı görüşlər keçirilib, onlara dövriyyələrini düzgün göstərmək, sənədləşmə işlərini şəffaf aparmaq, bu sahədə pozuntulara yol verməmək tövsiyə olunub...

Dövlət orqanı olaraq, Vergilər Nazirliyi öz fəaliyyətində şəffaflığın təmin olunması üçün mümkün olan bütün addımları atır. Vergi orqanları tərəfindən 60-dan çox elektron xidmət göstərilir və onların fəaliyyətinin elektronlaşdırılması istiqamətində ciddi nailiyyətlər əldə olunub. Lakin vergi ödəyiciləri, sahibkarlar da öz fəaliyyətlərini şəffaflaşdırmalı, uçot, mühasibat sənədlərini düzgün aparmalı, vergi qanunvericiliyinin tələblərinə əməl etməlidirlər.

*Biznes mühitinin daha da yaxşılaşdırılması və vergi ödəyicilərinin fəaliyyətinin genişləndirilməsi üçün həm qanunvericilik səviyyəsində, həm də nazirliyin öz səlahiyyətləri çərçivəsində müvafiq addımlar atılıb, ölkədə vergi yükü azaldılıb, vergi inzibatçılığının çevikliyi təmin edilib, kiçik sahibkarlıq subyektlərində səyyar vergi yoxlamaları və üç istiqamət istisna olmaqla, əksər operativ nəzarət tədbirləri dayandırılıb*

«Açıq qapı» günü çərçivəsində KİV nümayəndələrinin maraqlandıran suallar cavablandırılıb.

**«APA» İnformasiya Agentliyi:** ***Vergidən yayınma halları əsasən hansı sahələrdə üstünlük təşkil edir?***

**Sahib Ələkbərov:** Təəssüf ki, vergidən yayınma halları bir çox sahələrdə mövcuddur. Neft sahəsi şəffafdır və orada, demək olar ki, vergidən yayınma yox dərəcəsindədir. Ticarət, ictimai iaşə, tikinti sahəsində isə vergidən yayınma halları çoxdur. Şou-biznes sahəsində də vəziyyət ürəkaçan deyil, yayınmalar var. Böyük məbləğlər müqabilində toya gedən bəzi müğənnilər var ki, dövlətə cüzi məbləğdə, 40-50 manat vergi ödəyirlər. Əgər tezdən işə çıxıb küçələrin təmizliyini təmin edən süpürgəçi aldığı əməkhaqqından vergisini tam şəkildə ödəyirsə, yüksək gəlir əldə edən müğənnilər və digərləri nəyə görə vergidən yayınmalıdırlar?

Neçə ildir çalışırıq ki, nağdsız hesablaşmaların genişləndirilməsinə nail olaq. Lakin nağdsız ödənişlərə keçidin yalnız inzibati üsullarla təmin edilməsi yetərli deyil. Bunun həm də maarifləndirmə və stimullaşdırılma yolu ilə aparılması vacibdir. Dünyanın hər yerində nağdsız ödənişlər geniş yayılıb. Bir sıra ölkələr, məsələn, Skandinaviya ölkələri nağd ödənişlərdən imtina edəcəklərini bəyan edirlər. Biz də nağdsız ödənişlərə keçə bilsək, vergi daxilolmaları da böyük məbləğdə artacaq. Bu, şəffaflığın qarşısında olan əsas maneələrdən biridir.

**«Baku WS» saytı:** ***Dünya praktikasında şou-biznes nümayəndələrinin dövlətə nə qədər vergi ödədiyi barədə məlumat verilir. Azərbaycanda da bu praktika tətbiq oluna bilərmi?***

**Sahib Ələkbərov:** Qanun buna icazə vermir. Büdcəyə ödənilən vergilərin məbləği kommersiya sirri olduğundan, biz bu rəqəmləri açıqlaya bilmərik. Amma biz başqa bir addım ata, məsələn, şou-biznes nümayəndələrinin ödədiyi verginin məbləğini deyil, dövlətə olan vergi borcunun məbləğini açıqlaya bilərik. Onu da əlavə edim ki, bu sahədə aparılan maarifləndirmə və təbliğat işləri artıq müsbət nəticə verməkdədir. Ötən ilin dekabr ayında şou-biznes sahəsindən dövlət büdcəsinə əvvəlki 11 aydakından da çox vergi daxil olub. İlk rübdə də daxilolmanın səviyyəsi xeyli artıb. Vergi ödəyicisi kimi uçotda olmayan şou-biznes nümayəndələrinin çoxu artıq uçota alınıb. Biz onların hər birinə həmişə böyük hörmətlə yanaşmışıq və səbr nümayiş etdirmişik. Cari ilin birinci rübünün yekunları ilə bağlı təqdim olunan bəyannamələr təhlil olunduqdan sonra ola bilsin ki, yalnız maarifləndirmə tədbirləri ilə kifayətlənməyək və ciddi, təsirli tədbirlərə də əl atmağa məcbur olaq.

Dövlətin vergilərini vaxtında və tam şəkildə ödəmək hər kəsin Konstitusiya ilə müəyyən edilmiş borcudur və bundan yayınmaq olmaz.

**«Report» İnformasiya Agentliyi:** ***Azərbaycanda vergi yükünün yüksək səviyyədə olması iqtisadi artımın aşağı düşdüyü bir dövrdə mənfi təsirlərə səbəb ola bilər. İcarəyə verilən obyektlərin sayının artması da bunu göstərir. Gələcəkdə bununla bağlı vergi siyasətində hansısa dəyişiklik gözlənilirmi?***

**Sahib Ələkbərov:** Ölkədə vergi yükünün yüksək olması fikri ilə razı deyiləm. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2016-cı ilin yanvar-fevral aylarında əhalinin hər 1 nəfərinə düşən orta aylıq gəlirlər 356,6 manat olub. Bu gəlirlərin cəmi 10,7 %-i vergilərin, sığorta və üzvlük haqlarının yığımına yönəldilib. Azərbaycanda vergi yükünün aşağı olmasını «Heritage» fondunun hesablamaları da göstərir. Həmin məlumatlarla nazirliyin rəsmi internet səhifəsində tanış olmaq mümkündür. Azərbaycan vergi yükünün ən aşağı səviyyədə, sahibkarlar üçün ən əlverişli biznes mühitinin olduğu ölkələrdəndir.



Mağazaların bağlanması və ya icarəyə verilməsinə gəlincə, bu, təbii prosesdir. Bəzi mağazalar bağlandığı kimi, yeniləri də açılır. Bu ilin yanvar-fevral aylarında ölkə üzrə 22.859 (o cümlədən 1437 hüquqi, 21.422 fiziki şəxs) vergi ödəyicisi qeydiyyata alınıb. 5337 vergi ödəyicisi isə (o cümlədən 123 hüquqi, 5314 fiziki şəxs) ləğv olunub. 21.598 vergi ödəyicisi fəaliyyətini dayandırıb, 10.474 vergi ödəyicisi isə fəaliyyətini bərpa edib. Göründüyü kimi, bütövlükdə dinamika müsbətdir.

Dünyanın bir çox ölkələrində böhran dövründə vergi dərəcələri artırılır, bizdə isə vergi ödəyicilərinə güzəştlər verildi. Kənd təsərrüfatı (torpaq istisna olmaqla) bütün vergilərdən azaddır.

**«Report» İA:** ***Qeyd etdiyiniz kimi, bu ilin birinci rübündə Vergilər Nazirliyi proqnozları 101,4 faiz yerinə yetirib. İkinci rüb üçün proqnozların icrası ilə bağlı nə deyə bilərsiniz?***

**Sahib Ələkbərov:** Bizim vəzifəmiz büdcə proqnozlarının, o cümlədən ikinci rübün proqnozlarının icrasını təmin etməkdir. Bununla bağlı bir problem olmamalıdır. Çünki proqnozlar ciddi iqtisadi təhlillərə əsaslanır. Ölkəmizin vergi potensialı böyükdür və biz vergi bazasını genişləndirməklə vergi daxilolmalarını artırmalıyıq. Bunun üçün nağdsız ödənişlərə üstünlük verilməli, vergidən yayınmaların qarşısı alınmalıdır.

**«Fins.az» saytı:** ***Azərbaycanda iri vergi ödəyicilərinin borcları ilə bağlı mətbuatda müxtəlif rəqəmlər yayılır. Bu borcların dəqiq məbləği nə qədərdir?***

**Sahib Ələkbərov:** Cari ilin birinci rübündə bütövlükdə vergi borclarının məbləği təxminən 30 faiz azalıb. İri vergi ödəyiciləri ilə bağlı ciddi problemimiz yoxdur. Birinci rübün nəticələrinə görə, nisbətən çox vergi borcu olan iri vergi ödəyicisi «Azərsu» ASC-dir. Digər iri vergi ödəyicilərinin borcları çox cüzidir və düşünürəm ki, onlar yaxın vaxtlarda həmin borcların ödənilməsini təmin edəcəklər.

**«Türküstan info» saytı:** ***Vergi mədəniyyətinin formalaşması istiqamətində təhsil müəssisələrində və ya digər orqanlarda təlimlər və ya maarifləndirmə işləri həyata keçirilirmi?***

**Sahib Ələkbərov:** Bəli, bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilir. 54 orta məktəbdə, 2 texniki peşə liseyində vergi metodiki kabinetləri fəaliyyət göstərir. Ali məktəblərin yüzlərlə tələbə və məzunlarının iştirakı ilə hər il vergi olimpiadası keçirilir. Uşaqlar arasında «Vergilər uşaqların gözü ilə» adlı rəsm müsabiqəsi təşkil olunur və müsabiqə qaliblərinin rəsmləri nazirliyin inzibatı binasının divarlarını bəzəyir. Mütəmadi görülən bu işlərin hamısı vergi biliklərinin gənclərə aşılanmasına xidmət edir.

**«İnterfax» İnformasiya Agentliyi:** ***Bu ilin ötən dövrü ərzində neçə xarici sahibkarlıq subyekti qeydiyyatdan keçib və onlar əsasən hansı sahələrdə fəaliyyət göstərir?***

**Sahib Ələkbərov:** Yanvar-fevral ayları ərzində 114 xarici investisiyalı sahibkarlıq subyekti qeydiyyata alınıb. Almaniya, Fransa, İngiltərə, ABŞ, Norveç, Avstriya, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə kimi ölkələri təmsil edən bu şirkətlər nəqliyyat, tikinti, kimya sənayesi, kartoqrafiya fəaliyyəti, kommersiya fəaliyyəti və idarəetmə, bazar konyukturasının tədqiqi və ictimai rəyin öyrənilməsi, neft və qaz, turizm sahələrində və digər sahələrdə fəaliyyət göstərməyi planlaşdırırlar.



**«ANS press»:** ***Şadlıq sarayı və restoranlarda qeydiyyat kitablarının və kameraların quraşdırılması nəzərdə tutulurdu. Hazırda bu məsələ ilə bağlı işlər nə yerdədir və qeydiyyat kitablarına necə nəzarət ediləcək?***

**Sahib Ələkbərov:** Bu məsələ artıq başa çatmaq üzrədir. Həmin obyektlərdə quraşdırılan kameralar toyu izləmək üçün deyil, şadlıq saraylarında və restoranlarda tədbir keçirilməsinə nəzarət üçündür və tədbir başlanan ərəfədə onlar obyektin inzibatçıları tərəfindən söndürülür. Qeydiyyat kitabları bütün restoran və şadlıq saraylarına paylanılıb. Kitablarda qeydiyyatın aparılması iaşə obyektinin administratoruna tapşırılıb. Burada müğənninin adı, tədbirin keçirildiyi tarix, müğənninin tədbirdə iştirak etdiyi və obyekti tərk etdiyi vaxt, aldığı qonorar qeyd edilməlidir.

Əgər əvvəllər 12-14 min manata toya getdiyini açıq bəyan edən müğənni indi qeydiyyat kitabında cəmi 30-70 manat qonorar aldığını göstərirsə, bu, onun üçün ciddi problemə çevrilə bilər. Qeydiyyat kitabında göstərilən məlumatlarla müğənnilərin verdikləri bəyannamələr tutuşdurulacaq və sonra qanunamüvafiq tədbirlər görüləcək.

**«ANS press»:** ***Vergi borcuna görə ölkədən çıxışına qadağa qoyulan müğənnilər varmı?***

**Sahib Ələkbərov:** Məlum olduğu kimi, borclu vergi ödəyicilərinə qarşı ciddi tədbirlər görülür. Keçən ildən başlayaraq borcu olan vergi ödəyicilərinin adları ictimaiyyətə açıqlanır və bu işdə KİV-lərin də böyük rolunu hiss edirik.

Ölkədən çıxışa qadağa qoyulmasına gəlincə isə məhkəmənin qərarı ilə təkcə müğənnilər deyil, borcu olan hər bir vergi ödəyicisinin ölkədən çıxışına qadağa qoyula bilər. Əvvəllər bu qadağalar yalnız fiziki şəxslərə şamil olunurdu, yanvarın 1-dən isə bu hüququ şəxslərin icra qurumlarının rəhbərlərinə də şamil edilir. Vergilər Nazirliyinin rəsmi internet səhifəsində vergi borcuna görə ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılmış vergi ödəyicilərinin siyahısı yerləşdirilib. Bu siyahıda ölkədən getmək hüququ məhdudlaşdırılmış fiziki şəxslərin sayı 187, hüquqi şəxslərin icra orqanlarının rəhbərləri isə 112 nəfərdir. Bu rəqəm hər gün dəyişir və təəssüflər olsun ki, siyahıda müğənnilər də var. Belə hallarla üzləşməmək üçün dövlətin vergilərini vaxtında ödəmək lazımdır.

**«İnterfax» İA:** ***Vergi Məcəlləsinə dəyişikliklərə görə, ticarət və ictimai iaşə obyektlərinin dövriyyəsi çox olduqda vergi ödəyicilərinə seçim hüququ verilir. Bu hüquqdan istifadə edən vergi ödəyiciləri varmı?***

**Habil Məmmədov,** *vergilər nazirinin müşaviri, Bakı Vergilər Departamentinin rəisi vəzifəsini müvəqqəti icra edən:* Azərbaycan Respublikasının 2015-ci ilin 23 oktyabr tarixli qanunu ilə Vergi Məcəlləsinə dəyişikliklər edilib və dəyişikliklər bu il yanvarın 1-dən qüvvəyə minib. Məcəlləyə edilmiş dəyişiklik vergi ödəyicilərində könüllü əməletmənin səviyyəsinin yüksəldilməsinə, onların hüquqlarının genişləndirilməsinə və vergitutmanın sadələşdirilməsinə xidmət edir. Ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə satış dövriyyəsi 200.000 manatdan artıq olduğu halda ticarət fəaliyyəti üzrə 6 faiz, ictimai iaşə fəaliyyəti üzrə 8 faiz dərəcə ilə sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququ verilir.

**Davamı 4-cü səhifədə**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# Vergi öhdəlikləri

***Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident hüquqi şəxsin mülkiyyətindəki Azərbaycan Respublikasında yerləşən daşınmaz əmlakların rezident hüquqi şəxsə icarəyə verilməsində hansı vergi öhdəliyi yaranır?***

Vergi Məcəlləsinin 124.1-ci maddəsinin müddəalarına əsasən, daşınan və daşınmaz əmlak üçün icarə haqqından gəlir Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, ödəmə mənbəyində 14 faiz dərəcə ilə vergi tutulur.

Vergi Məcəlləsinin 124.3-cü maddəsinə görə, rezident müəssisələrə və ya qeyri-rezidentlərin daimi nümayəndəliklərinə Azərbaycan Respublikasında ödənilmiş məbləğlər bu maddə üzrə vergitutma obyekti deyildir.

Vergi Məcəlləsinin 125.1.7-ci maddəsinə uyğun olaraq, qeyri-rezidentin Vergi Məcəlləsinin 13.2.16-cı maddəsi ilə Azərbaycan mənbəyindən əldə olunan gəliri kimi müəyyən edilən və qeyri-rezidentin Azərbaycan Respublikasının ərazisindəki daimi nümayəndəliyinə aid olmayan icarə haqları və royalti şəklində əldə etdiyi gəlirindən ödəmə mənbəyində xərclər çıxılmadan Vergi Məcəlləsinin 124-cü maddəsinə uyğun olaraq, 14 faiz dərəcə ilə vergi tutulur.

Vergi Məcəlləsinin 168.1.1-ci maddəsinin müddəalarına əsasən, işlər (xidmətlər) bilavasitə daşınmaz əmlakla bağlıdırsa, daşınmaz əmlakın olduğu yer ƏDV-nin məqsədləri üçün işlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer sayılır.

Vergi Məcəlləsinin 168.1.6-cı maddəsinin müddəalarına görə, ƏDV məqsədləri üçün işi yerinə yetirən və ya xidmət göstərən şəxsin fəaliyyəti həyata keçirdiyi yer işlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer sayılır.

Vergi Məcəlləsinin 169.1-ci maddəsində qeyd edilmişdir ki, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində Vergi Məcəlləsinin 169.2-ci və ya 169.5-ci maddələrində adı çəkilən vergi agenti üçün xidmət göstərirsə və ya iş görürsə, Vergi Məcəlləsinin XI fəslinin məqsədləri üçün işlərin görülməsi və ya xidmətlərin göstərilməsi Vergi Məcəlləsinin 169-cu maddəsinə uyğun olaraq, vergiyə cəlb edilir.

Qeyd olunan müddəalara əsasən, daşınmaz əmlakın icarəyə verilməsinə görə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident hüquqi şəxsə rezident hüquqi şəxs tərəfindən ödənilən icarə haqqından ödəmə mənbəyində 14 faiz dərəcə ilə vergi tutulmaqla yanaşı, qeyri-rezidentə ödənilən icarə haqqı məbləğindən 18 faiz dərəcə ilə ƏDV hesablanaraq dövlət büdcəsinə ödənilməlidir.

# Vergilər Nazirliyi qapıları ictimaiyyətin üzünə açdı

**Əvvəli 3-cü səhifədə**

Sadələşdirilmiş vergini ödəyən ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər ƏDV-nin, mənfəət və əmlak vergisinin, fiziki şəxslər isə ƏDV-nin və gəlir vergisinin ödənilməsindən azad edilirlər. Vergi ödəyicisi bu hüquqdan istifadə edə də bilər, etməyə də. İmtina etdiyi təqdirdə isə əvvəlki qaydada ƏDV, mənfəət, yaxud gəlir və digər vergiləri ödəməlidir.

Dövriyyəsi 200.000 manatdan aşağı olan vergi ödəyiciləri kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olan ödəyicilər sayılır. Onlar Bakı şəhərində fəaliyyət göstərdikləri halda dövriyyələrinin 4 faizi, regionlarda isə 2 faizi məbləğində vergi ödəyirlər.

Bu ilin ilk 3 ayı ərzində əvvəllər ƏDV ödəyicisi kimi qeydiyyata alınmış, ticarət fəaliyyəti ilə məşğul olan 48, ictimai iaşə fəaliyyəti ilə məşğul olan 72, mənzil tikintisi fəaliyyəti ilə məşğul olan 45 vergi ödəyicisi sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə etmək üçün vergi orqanlarına müraciət edib.

**«Report» İA:** ***Ölkədə, xüsusilə hotel və mehmanxanalarda qanunsuz olaraq valyuta dəyişdirilməsi halları müşahidə edilir. Bununla bağlı Vergilər Nazirliyi hər hansı işlər həyata keçirirmi?***

**Habil Məmmədov:** Vergi Məcəlləsinin 50-ci maddəsi operativ nəzarət tədbirlərini əhatə edir və bu tədbirlər nəticəsində valyuta sərvətlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən olunmuş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktları aşkar edilir.

Vergi orqanlarının apardığı yoxlamalar zamanı belə qanun pozuntularına təkcə hotellərdə deyil, ticarət və ictimai iaşə müəssisələrində də rast gəlinir və belə hallara qarşı müvafiq tədbirlər görülür. Təbii ki, ictimai yerlərdə valyutanın alınıb-satılması, dəyişdirilməsi qanunsuzdur. Bu sahədə vergi orqanları cari ilin birinci rübündə bütövlükdə 168 qanun pozuntusu aşkarlayıblar.



**«İnterfax» İA:** ***Vergi qanunvericiliyinə hansısa dəyişiklik nəzərdə tutulurmu və tutulursa, bu dəyişikliklər nədən ibarət ola bilər?***

**Samirə Musayeva:** *Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi:* Məlum olduğu kimi, 2016-cı ildə Vergi Məcəlləsinə bir sıra dəyişikliklər edilib. Bunlar maliyyə bazarlarına nəzarət orqanlarının vergi öhdəlikləri, investisiya təşviqi sənədi alan vergi ödəyicilərinə vergi güzəştinin verilməsi, eləcə də ölkəmizə idxal edilən taxılın, buğda ununun və çörəyinin satışının əlavə dəyər vergisindən azad olunması, fiziki şəxslərin banklara qoyduğu əmanətlər üzrə əldə etdiyi faiz gəlirlərinin və investisiya qiymətli kağızların əldə olunan dividend, diskont və digər faizlərin vergidən azad olunması ilə bağlı güzəştləri əhatə edir. Bu gün də Vergi Məcəlləsində bir sıra dəyişikliklərlə bağlı müzakirələr aparılır. Bunlar daha çox yerli istehsalın və investisiya mühitinin təşviq edilməsi ilə bağlıdır.

**«APA» İnformasiya Agentliyi:** ***Əmanətlərdən gəlir vergisinin fevralın 1-dən azad olunması nəzərdə tutulurdu, qanun isə martın 1-də imzalandı. Bir aylıq dövrdə banklar müştərilərdən əmanətlər üzrə vergilərin ödənilməsini tələb edirdilər. Fevralın 1-dən martın 1-dək ödənilən məbləğin geri qaytarılma mexanizmi necə aparıla bilər?***

**Samirə Musayeva:** Bu məsələ ilə bağlı Vergilər Nazirliyinə vergi ödəyiciləri, əmanətçilər, banklar tərəfindən müraciətlər daxil olur. Biz çox istəyirik ki, bu yanlış anlaşılma aradan qalxsın. Qanun mart ayında dərc olunsa da, qanunda göstərilir ki, azadolma və güzəştlər fevral ayının 1-dən qüvvəyə minir. Banklar əmanətlərdən gəlir vergisi tutublarsa, bu məbləğ əmanətçilərə geri qaytarılmalıdır. Əgər banklar həmin vəsaiti dövlət büdcəsinə ödəyiblərsə, büdcə ilə qarşılıqlı hesablaşma qanunla tənzimlənir. Əslində, proses çox sadədir və heç bir halda əmanətçilərin hüquqlarının pozulmasına yol verilməməlidir.

**«Baku WS» saytı:** ***Fərdi əmək fəaliyyəti ilə məşğul olan şəxslərin vergiyə cəlb olunması istiqamətində işlər nə yerdədir?***

**Samirə Musayeva:** Fərdi peşə fəaliyyətinin vergiyə cəlb olunması təcrübəsi dünyanın bir sıra ölkələrində var. Həmin şəxslər ayrı-ayrı fiziki şəxslərin evlərində işlədikləri üçün vergi orqanları yaşayış binalarına müdaxilə etmir və nəzarət tədbiri həyata keçirə bilmir. Ona görə də bir neçə xarici ölkə təcrübəsini öyrənməklə qanun layihəsi üzərində işləyirik. Ola bilsin ki, həmin şəxslər üçün şərti vergi məbləği tətbiq olunsun. Hazırda ölkə daxilində taksi və daşıma xidməti ilə məşğul olan şəxslər üçün standart vergilər mövcud olduğu kimi, fərdi əmək fəaliyyəti ilə məşğul olan şəxslər üçün də patent sistemi üzrə standart vergi tətbiq edilə bilər.

**AYTƏN**

# Vergilər Nazirliyinin guşəsi böyük maraqla qarşılanıb

Cari ilin 7-9 aprel tarixlərində Bakı Ekspo Mərkəzində regionda turizm sənayesinin ən böyük ixtisaslaşdırılmış tədbiri - 15-ci Yubiley Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər («AITF») sərgisi fəaliyyətinə başlamışdır. «AITF» sərgisi müasir turizm bazarının ümumi mənzərəsini əks etdirməklə yanaşı, dünyanın müxtəlif bölgələrini bütün koloriti ilə nümayiş etdirən aparıcı beynəlxalq sərgi statusunu qazanmış və artıq 15 ildir ki, bütün turizm sənayesi nümayəndələrinin görüşü üçün beynəlxalq platforma kimi fəaliyyət göstərir.



«Bütün dünya. Bir sərgi» şüarı altında keçən «AITF-2016» sərgisində dünyanın 29 ölkəsindən 330 şirkət və təşkilatlar turizmin müxtəlif istiqamətlərini təqdim etmişlər. «AITF» sərgisinin daimi iştirakçıları arasında Azərbaycan, Bolqarıstan, Gürcüstan, Dominikan Respublikası, Hindistan, İndoneziya, İran, İspaniya, Serbiya, Tailand, Türkiyə, Xorvatiya, Monteneqro, Çexiya və Ukraynadan 20-dən çox milli və regional qrup iştirak etmişdir.

Sərgidə Vergilər Nazirliyinin guşəsi tədbir iştirakçılarının, xüsusilə xarici və yerli sahibkarların böyük marağına səbəb olmuşdur. Tədbir keçirilən müddətdə Vergilər Nazirliyinin vergi ödəyicilərinə xidmət strukturlarının əməkdaşları tərəfindən sərgi iştirakçılarını maraqlandıran suallara cavab verilmiş, onlara çoxlu sayda məlumat xarakterli materiallar və nəşrlər paylanmışdır.

**FƏXRİYYƏ**

# Qanunsuz maliyyə axınlarına qarşı mübarizə

Türkiyə Respublikasının paytaxtı Ankara şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən «Vergi və cinayət: qanunsuz maliyyə axınlarına qarşı mübarizə» mövzusunda seminar keçirilmişdir. 10 dövlətdən 20 nümayəndənin və OECD ekspertlərinin iştirak etdikləri seminarda maliyyə cinayətlərinə qarşı mübarizə sahəsində beynəlxalq təcrübə barədə məlumatlar verilmiş, OECD-nin çirkli pulların yuyulması ilə bağlı vergi müfəttişlərinin bilik səviyyəsinin artırılmasına dair meyarları müzakirə olunmuşdur.

Seminarda Azərbaycanı Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin Maliyyə institutlarında vergi monitorinqi idarəsinin Maliyyə institutlarında vergi əməletməsinə nəzarət şöbəsinin əməkdaşı Aslan Aslanov təmsil etmişdir.

# İqtisadi rəqabət üçün hüquqi baza gücləndirilir

Milli Məclisin ötən həftə keçirilən iclasında Cinayət Məcəlləsinin 199-cu (İnhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma) maddəsinə əlavə və dəyişikliklər müzakirəyə çıxarılıb. Layihə barədə məlumat verən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, dəyişikliyə əsasən, əvvəlcə maddənin 1-ci bəndi yeni qaydada veriləcək: «Təsərrüfat subyektlərinin digər rəqibləri bazardan kənarlaşdırmaq və ya yeni rəqiblərin bazara daxil olmasının qarşısını almaq məqsədilə rəqabəti məhdudlaşdıran vasitələrin tətbiqi barədə kartel sövdələşməsi, belə sövdələşmədə iştirak etmə, yaxud rəqabətin qarşısının alınmasına, aradan qaldırılmasına və ya məhdudlaşdırılmasına səbəb olan və ya səbəb ola bilən bazar maneələrini yaratma, məhdudlaşdırıcı fəaliyyət vasitələrindən istifadə etmə və ya digər inhisarçılıq hərəkətləri etməyə görə cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) 2 misli miqdarında cərimə edilməklə iki il müddətinə müəyyən vəzifə tutma və müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, və ya iki il müddətinə müəyyən vəzifə tutma və müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilə qədər azadlıqdan məhrum etmə cəzası tətbiq edilir». Qanun layihəsində qeyd olunan bəndin hazırda qüvvədə olan variantı isə belədir: «İnhisarcasına yüksək və ya inhisarcasına aşağı qiymət təyin etməklə, habelə bazarı bölüşdürməklə, bazara daxil olma imkanını məhdudlaşdırmaqla, oradan iqtisadi fəaliyyətin digər subyektlərini kənarlaşdırmaqla, vahid qiymət təyin etməklə və ya saxlamaqla inhisarçılıq hərəkətlərini etməyə görə, 100 manatdan 500 manata qədər cərimə və ya bir ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması ilə cəzalandırılır».

Qanun layihəsindəki 199-cu maddənin 2-ci bəndi isə dəyişdirilərək eyni əməllərin qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilməsi ilə yanaşı, onun təkrar törədilməsi, şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi, o cümlədən xeyli miqdarda ziyan vurduqda, xeyli miqdarda gəlir əldə etməklə törədilməsi də cinayət məsuliyyəti kimi qeydə alınır və buna görə, 3 il müddətinə müəyyən vəzifə tutma və müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə, yaxud cinayət nəticəsində vurulmuş ziyanın 3 misli miqdarında cərimə edilməklə 3 ildən 7 ilə qədər azadlıqdan məhrumetmə tətbiq olunur. Hazırda qüvvədə olan qanuna görə, «Eyni əməllər qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə, iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır».

Qanun layihəsində edilən digər bir dəyişiklik isə yuxarıda qeyd olunan bəndlərdə nəzərdə tutulmuş əməllər hədə-qorxu ilə tələb etmə əlamətləri olmadan, zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə, habelə özgənin əmlakını məhv etməklə və ya zədələməklə və ya belə məhv etmə və ya zədələmə hədəsi ilə törədildikdə, külli miqdarda ziyan vurduqda (gəlir əldə etdikdə) vurulmuş ziyanın 4 misli miqdarında cərimə tətbiq olunmaqla, 7 ildən 12 ilə qədər həbs cəzasının tətbiq edilməsidir. Bəndin hazırda qüvvədə olan cəzası isə əmlak müsadirə olunmaqla 3 ildən 6 ilə qədər həbsdir.

Maddənin «Qeyd» hissəsində bildirilir ki, burada xeyli miqdar dedikdə 10 min manatdan 50 min manata qədər, külli miqdar dedikdə isə 50 min manatdan artıq vəsait nəzərdə tutulur. Göstərilən əməli törətmiş şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla həmin cinayət əməlinin aşkar olunmasına və qarşısının alınmasına yardım etdikdə, onun əməlində başqa cinayətin tərkibi olmadıqda cinayət məsuliyyətindən azad edilir.

Dəyişiklik layihəsi səsverməyə qoyularaq birinci oxunuşda qəbul edilib.

**Rəşad SADIQOV**



# Vergi hüquqpozmalarına qarşı mübarizə tədbirləri

*2016-cı ilin 1-ci rübündə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə 135 cinayət işi başlanıb. Bu işlər üzrə aparılan araşdırmalar zamanı 4 milyon 618 min manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilib.*

Departamentin İstintaq idarəsində 226 cinayət işi üzrə ibtidai istintaq tamamlanıb, 4 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilib. İstintaqı tamamlanmış cinayət işlərindən 35 iş üzrə 37 nəfər şəxs barəsində materiallar ittiham aktı ilə aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilib. 103 cinayət işi üzrə büdcədən yayındırılmış vergilər ibtidai istintaq zamanı tamamilə ödənildiyinə görə, icraatına xitam verilib.

Keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan olunmuş 11 nəfər şəxs tutularaq Departamentin İstintaq idarəsinə təhvil verilib, ibtidai istintaqdan yayınan 99 şəxsin məcburi qaydada gətirilməsi, 156 şəxsin tapılaraq istintaqa cəlb olunması, 236 şəxsin yerinin müəyyən edilərək istintaqa məlumat verilməsi təmin olunub. Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına köməklik göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından, əmlakının siyahıya alınmasından yayınan və fəaliyyəti barədə bəyannamə təqdim etməyən 37 nəfər vergi ödəyicisi tapılaraq onların müvafiq vergi orqanlarına gəlməsi təmin edilib.

## BİR CÜMLƏ - BİR XƏBƏR

Vaşinqtonda Azərbaycan və Gürcüstanın ABŞ-dakı səfirlikləri və Kolumbiya federal dairəsinin Kiçik və yerli biznes inkişafı departamentinin birgə təşkilatçılığı ilə «Azərbaycan və Gürcüstanda biznes imkanları» mövzusunda seminar keçirilib.

Elektrik enerjisinin istehsalı üçün idxal olunan mazut gömrük rüsumundan azad edilib.

Azərbaycanın iş adamları Tehranda keçirilən «İran Plast» sərgisində iştirak edirlər.

Dövlət Gömrük Komitəsinin daha 4 xidməti «Elektron hökumət» portalına inteqrasiya edilib.

Azərbaycanın xarici ölkələrdə olan turizm nümayəndəliklərinin rəhbərləri arasında görüş keçirilib.

Yaponiyalı iş adamlarından ibarət nümayəndə heyəti, eləcə də Okinava prefekturasının rəsmi şəxsləri Azərbaycana səfərə gəlib.

Bu ilin iyun ayında Bakıda Azərbaycan-Macarıstan hökumətlərarası komissiyasının növbəti iclası keçiriləcək.

Bakıda «Adonis» beynəlxalq topdansatış səyahət sisteminin təqdimatı olub.

# Vergi agenti

**Vergi Məcəlləsinin 169.2-ci, 169.3-cü və 169.4-cü maddələrinə əsasən, ƏDV məqsədləri üçün qeydiyyata alınan hər hansı şəxs bu maddənin məqsədləri üçün vergi agenti sayılır.**

Vergi agenti Vergi Məcəlləsinə uyğun olaraq vergini hesablamağa, onu vergi ödəyicisindən tutmağa və təyinatı üzrə köçürməyə borclu olan şəxsdir. Vergi agentinin, Vergi Məcəlləsində başqa hallar nəzərdə tutulmamışdırsa, vergi ödəyicisi ilə eyni hüquqları vardır.

Vergi üzrə mütəxəssis Emin Səttarov mövzunu şərh edərək bildirmişdir ki, VM-in 169.1-ci maddəsinə əsasən, ƏDV məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində VM-in 169.2-ci və ya 169.5-ci maddələrində adı çəkilən vergi agentinə xidmət göstərirsə və ya iş görürsə, bu tətbiq edildikdə vergi agenti qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV hesablamalı və ödəməlidir. Verginin məbləği 173.1-ci maddənin müddəalarına uyğun olaraq vergi dərəcəsinin qeyri-rezidentə ödənilməli olan məbləğə (ƏDV nəzərə alınmadan) tətbiq edilməsi yolu ilə müəyyənləşdirilir.

Vergi agenti ƏDV məqsədləri üçün qeydiyyatdan keçmişdirsə, hesablanan vergi əməliyyatın aparıldığı ay üçün ƏDV-nin bəyannaməsi verilərkən ödənilir. Hesablanan verginin ödənilməsini təsdiq edən ödəmə sənədi bu Məcəllənin 175-ci maddəsinin müddəalarına uyğun olaraq, vergi agentinə ƏDV-nin məbləğini əvəzləşdirmək hüququnu verən elektron vergi hesab-fakturasıdır. Vergi agenti ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçməmişdirsə, o, hesablanan vergini bu məbləği barədə vergi uçot qeyri-rezidentə ödəmə verildikdən sonra 7 gün ərzində ödəməyə və növbəti ayın 20-dək mü-

> Vergi agenti qanunla ona həvalə edilmiş vəzifələri yerinə yetirməməyə və ya lazımınca yerinə yetirməməyə görə Vergi Məcəllәsi və digər qanunlarla müəyyən edilmiş qaydada məsuliyyət daşıyır

fəslin məqsədləri üçün işlərin görülməsi və ya xidmətlərin göstərilməsi vergiyə cəlb olunur.

Vergi agenti qanunla ona həvalə edilmiş vəzifələrin yerinə yetirməməyə və ya lazımınca yerinə yetirməməyə görə Vergi Məcəlləsi və digər qanunlarla müəyyən edilmiş qaydada məsuliyyət daşıyır. Vergi agenti birbaşa və ya dolayı yolla tabe olduğu şəxsin təqsiri üzündən ona həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsinə və ya lazımınca yerinə yetirilməməsinə görə vergi agentinin bilavasitə və ya dolayısı ilə tabe olduğu şəxs Vergi Məcəlləsi və digər qanunlarla müəyyən edilmiş qaydada məsuliyyət daşıyır. Məcəllənin 169.1-ci maddəsi vafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş formada ƏDV bəyannaməsi verməyə borcludur. Məcəlləyə uyğun olaraq, vergi agentinin qeyri-rezidentə ödənilməli olan məbləğ ƏDV-nin hesablanması üzrə əməliyyatları vergi agentinin ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmasına görə müəyyənləşdirilən vergi tutulan əməliyyatlarına aid edilmir. Vergi agenti qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV-ni hesablayaraq büdcəyə ödədikdə, ödəniş sənədlərində vergini qeyri-rezidentdə ödədiyi məbləğdən hesabladığı barədə müvafiq qeyd aparmalıdır (VM, maddə 169.5).

**F.İKRAMQIZI**

# Mütərəqqi təcrübələrin tətbiqinə həsr olunmuş seminar

Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) tərəfindən Macarıstan Respublikasının paytaxtı Budapeşt şəhərində «Vergi administrasiyalarında proses və prosedurların təkmilləşdirilməsi məqsədilə ən mütərəqqi təcrübələrin tətbiqi» mövzusunda seminar keçirilmişdir. Albaniya, Azərbaycan, Bosniya və Herseqovina, Bolqarıstan, Çexiya, Gürcüstan, İrlandiya, İtaliya, Latviya, Litva, Macarıstan, Monteneqro, Norveç, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, İsveç vergi orqanlarının nümayəndələrinin iştirak etdikləri tədbirdə hər bir ölkənin təcrübəsi barədə müzakirələr olmuşdur.

Seminarda Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin rəisi Namiq Dərgahov da iştirak etmişdir.

# Manata inamı artırmaq naminə...

*Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən banklara xarici valyutada əhaliyə istehlak kreditlərinin verilməsi ilə bağlı qadağa qoyulub*

Palata bu qərarı xarici valyutada istehlak kreditlərinin verilməsi sahəsində dərin və hərtərəfli təhlillərin aparılması, istehlakçıların hüquqlarının müdafiəsinin və maliyyə sabitliyinin təmin olunması və 1 ay ərzində tənzimləyici çərçivələrin müəyyən edilməsi məqsədilə qəbul edib. Qərar aprelin 5-dən qüvvəyə minib.

İqtisadçılar hesab edirlər ki, bu addımın hazırda dollar kreditləri sahəsində gərginliyin artdığı bir ərəfədə atılması gözlənilləndir, çünki faktiki olaraq banklardan dollarla kredit almaq istəyənlər yoxdur. Digər tərəfdən, banklar 2014-2015-ci illərdə ABŞ valyutası ilə verdiyi kreditləri geri ala bilmir. Belə bir vəziyyətdə banklara dollarla kredit verməyi qadağan etmək, əslində, konkret şəraitin tələbindən irəli gəlir. İqtisadçı Oqtay Məmmədovun sözlərinə görə, ölkədə milli valyuta ilə maaş alan insanlara həmin lində, bu, istehlakçıların hüquqlarının pozulması halları deməkdir. Xarici kapital əsasında yaradılıb Azərbaycanda fəaliyyət göstərən banklara müəyyən istisnalar ola bilər, amma ölkəmizin kommersiya banklarının kredit siyasətini kütləvi şəkildə dollarlaşdırması bank sisteminə nəzarətdə boşluqların olmasının nəticəsidir.

Son illərdə kredit portfelində xarici valyuta üzrə kreditlərin həcmi xeyli artıb. Bu isə son 5 ildə problemli kreditlərin həcminin artmasına səbəb olub və həmin kreditlərin 70 faizə yaxını dollarla verilənlərdir. Vətəndaşlar ikinci devalvasiyadan sonra bunun ağırlığını daha çox hiss edirlər.

Ona görə də kredit siyasətinin tənzimlənməsinə ciddi ehtiyac var idi. Bir müddət əvvəl Ali Məhkəmənin iclasında bu məsələ ciddi müzakirəyə səbəb olmuşdu və məhkəmənin sədri Ramiz Rzayev Azərbaycanda bəyan etmişdi ki, yaxın vaxtlarda aidiyyəti iqtisadi strukturların birgə təklifləri nəzərə alınaraq, manatın likvidliyinin artırılması istiqamətində mühüm qərarlar qəbul ediləcək. Milli valyutanın aktivliyinin bərpası məqsədilə dedollarizasiya tədbirləri həyata keçiriləcək. Ötən dövr ərzində «Əmanətlərin sığortalanması haqqında» Qanuna dəyişikliklər edilməsi, milli valyuta üzrə qorunan depozit dərəcələrinin 12 faizə qaldırılması, dollar əmanətlərinin sığorta limitinin 3 dəfədən çox aşağı salınması, Mərkəzi Bank tərəfindən uçot dərəcələrinin artırılması və digər addımlar manata inamı artırmağa hesablanıb.

Ekspertin qənaətinə görə, dollar kreditlərinin dayandırılması müddətinin artırılması istisna olunur. Çünki tənzimləyici çərçivələrin mayın ilk həftəsinə qədər hazırlanacağı mümkün görünmür. Palatanın müddətin uzadılması hüququnu öz

> *Elə banklar var ki, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi üçün də dollardan başqa, digər valyuta ilə kredit vermirdilər*

valyuta növü üzrə deyil, başqa bir valyuta ilə kredit verilməsi bank-kredit sistemində mövcud olan uyğunsuzluq kimi başa düşülməlidir. Banklar əsas borcverən təşkilat kimi Mərkəzi Bankdan aldıqları vəsaitləri milli valyuta ilə cəlb edirlər. Onlar MB-dən manatla götürdükləri kreditləri dollara çevirib vətəndaşlara xarici valyuta ilə təklif ediblər. Hətta elə banklar var ki, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi üçün də dollardan başqa, digər valyuta ilə kredit vermirdilər. Bunu sonuncu devalvasiya zamanı ticarət, xidmət sahələrində çalışan sahibkarların üzləşdikləri böyük həcmli itkilər də göstərir. Əsda bankların müştərilərə yalnız dollarla kredit təklif etməsini insan hüquqlarına zidd addım kimi qiymətləndirmişdi. Bu halın vətəndaşın hüququnun pozulması hesab edən Ali Məhkəmə müvafiq qurumların mövcud uyğunsuzluqların həlli üçün təcili tədbirlər görməsini tövsiyə etmişdi.

İqtisadçı Ruslan Atakişiyev hesab edir ki, hazırkı qərar manata inamın artırılmasına yönəlmiş siyasətin tərkib hissəsi kimi qiymətləndirilməlidir. İkinci devalvasiyadan sonra hökumət faktiki olaraq manata etibarın artması və maliyyə sabitliyinin təmin edilməsi məqsədilə bir sıra tədbirlər gördü. Mərkəzi Bank hələ mart ayının əvvəllərində bəyan etmişdi ki, yaxın vaxtlarda üzərində saxladığına dair bəyanatı da bunu deməyə əsas verir. Bu siyasət çərçivəsində manatla verilən kreditlərin say və həcminin artırılacağı gözlənilməlidir. Çünki mövcud bazar konyukturası bankları buna məcbur edəcək. Bankların tamamilə kreditləşməni dayandırması onların özləri üçün də ciddi problemlər yaradır. Onlar gəlir əldə etmək üçün kredit verilməsini artırmalıdırlar. Bu isə hazırda manatla kredit almaqda çətinlik çəkən vətəndaşların ehtiyaclarının ödənilməsinə yardım edə bilər. Manatın aktivliyinin yüksəlməsi həm də iqtisadi inkişafa təkan verəcək.

**Elbrus CƏFƏRLİ**

# Kart ödənişləri üzrə milli şəbəkə genişləndirilir

Mərkəzi Bank «Kart ödənişləri üzrə milli şəbəkənin yaradılması» layihəsi çərçivəsində Banklararası Kart Mərkəzini (BKM) istifadəyə verib. Mərkəzin əsas fəaliyyəti ödəniş kartları ilə aparılan əməliyyatlar üzrə məlumatların emalı prosesinin tam şəkildə ölkə daxilində həyata keçirilməsini təmin edəcək. BKM ölkədə prosessinq fəaliyyəti göstərən bütün bank-maliyyə təşkilatlarının infrastrukturları arasında əlaqəni təmin edəcək və bununla da ölkə daxilində ödəniş kartları ilə aparılan əməliyyatların emalı bu infrastruktur vasitəsilə tənzimlənəcək.

Mərkəzi Bankın İdarə Heyətinin sədr müavini Alim Quliyev bildirib ki, yeni qurumun yaradılması ödəniş kartları ilə aparılan əməliyyatlar üzrə hesablaşmalarda effektivliyin daha da artırılmasına, xidmət haqlarının bazar tələblərinə uyğun çevik tənzimlənməsinin təşkilinə, habelə nağdsız hesablaşmaların səmərəliliyinin yüksəldilməsinə səbəb olacaq.

Ödəniş sistemlərində vahid infrastrukturun yaradılması kart bazarında bir sıra xərclərin optimallaşdırılmasına və vətəndaşların bankomatlardan istifadəsi zamanı xidmət haqlarının aşağı salınmasına imkan verəcək. A.Quliyev qeyd edib ki, «Kart ödənişləri üzrə milli şəbəkə layihəsi»nin digər komponentləri ödəniş kartlarının təhlükəsizliyinin gücləndirilməsini nəzərdə tutur. Ölkədə kart prosessinq mərkəzləri arasında texniki inteqrasiyanın olmaması səbəbindən, onlar arasında həyata keçirilən ölkədaxili əməliyyatlar ölkədən kənarda beynəlxalq kart təşkilatları tərəfindən emal edilir. Bu isə kart şəbəkəsindən qarşılıqlı istifadə göstəricilərini aşağı salmaqla yanaşı, müəyyən kənar təhdidlərin olması ehtimalını yaradır. Bu məqsədlə, layihəyə uyğun olaraq, ödəniş sistemlərinin təhlükəsiz və effektiv fəaliyyəti, müdaxilə hallarının qarşısının alınması üçün mövcud infrastruktur imkanlarının artırılması, eləcə də banklar, prosessinq mərkəzləri, iri ticarət sistemləri, ödəniş şirkətləri və hüquq-mühafizə orqanlarının əlaqəli fəaliyyəti istiqamətində tədbirlər həyata keçiriləcək. Fəaliyyət planına əsasən, ödəniş sistemlərinə nəzarət alətləri gücləndiriləcək və yeni texnologiyalar tətbiq olunacaq.

A.Quliyev ödəniş sistemlərinə inkişafı və yeni texnologiyaların tətbiqi ilə əlaqədar qarşıda duran digər hədəflərin Mərkəzi Bank tərəfindən hazırlanmış «2015-2020-ci illərdə Azərbaycan Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Dövlət Proqramı» layihəsində nəzərdə tutulduğunu vurğulayıb. Layihədə əhali və iqtisadi subyektlərin elektron ödəniş xidmətlərindən daha fəal istifadəyə cəlb edilməsi, elektron bankçılığın inkişafı, innovativ ödəniş alətlərinin, o cümlədən elektron pulun istifadə imkanlarının və bank xidmətlərində müasir texnologiyalardan istifadənin genişləndirilməsi, habelə bank xidmətlərinin iqtisadi səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi kimi məsələlər öz əksini tapıb.



**ELBRUS**

# Sintetik uçotun aparılması ilə bağlı yeni qayda

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hörmətli oxucular, bu dəfə Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının 18 yanvar 2016-cı il tarixli Q-02 nömrəli Qərarı ilə təsdiq edilmiş «Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq memorial order forması əsasında sintetik uçotun aparılması Qaydası»na əsasən təşkilatlarda (müəssisələrdə) təhtəlhesab şəxslərlə hesablaşmalar üzrə sintetik uçotun aparılmasını əsas məqamlar üzrə təhlil edəcəyik.

Bu Qaydanın təhtəlhesab şəxslərlə hesablaşmalar üzrə sintetik uçotun aparılmasını müəyyən edən müddəalarından aydın olur ki, təhtəlhesab şəxslərlə hesablaşmalar üzrə baş verən əməliyyatlar nağd şəklində pulun verilməsini təsdiq edən kassa-məxaric orderi, əməkhaqqı kartlarına ödənişi təsdiq edən ödəniş tapşırığı və qəbzlər, orderlər, çeklər, qaimə-fakturalar, müqavilələr, aktlar və digər xərc sənədləri əlavə edilmiş avans hesabatı əsasında rəsmiləşdirilir və bu sənədlər müəyyən olunmuş müddətlərdə mühasibatlığa təhvil verilir.

Təşkilatlarda (müəssisələrdə) təhtəlhesab şəxslərlə hesablaşmalar üzrə sintetik uçotun aparılması ilə əlaqədar Qaydadakı müddəalar aşağıdakı kimidir:

- təhtəlhesab şəxslərə avans olaraq pul vəsaitləri təşkilatın kassasından nağd şəkildə və ya bankda olan hesablarından onların əməkhaqqı kartlarına köçürmə yolu ilə ödənilir;
- təhtəlhesab şəxslər aldıqları avansların təyinatından asılı olaraq, beş iş günü müddətində onların xərclənməsi barədə mühasibatlığa avans hesabatı təqdim etməlidirlər və xərclənməyən pul qalığını kassaya qaytarmalıdırlar. Eyni şəxsə yeni avans məbləği yalnız əvvəl verilmiş avans məbləği haqda hesabat təqdim edildikdən və pulun qalığı qaytarıldıqdan sonra verilir;
- ezamiyyə məqsədləri üçün verilən avans məbləğləri üzrə avans hesabatları isə təhtəlhesab şəxs ezamiyyətdən qayıtdıqdan sonra onun tərəfindən üç iş günü müddətində mühasibatlığa təhvil verilməlidir;
- təhtəlhesab məbləğlərin uçotunu aparan mühasib avans hesabatına əlavə edilmiş sənədlərin, avansın təyinatı üzrə xərclənməsinin və avans hesabatının özünün düzgünlüyünü yoxlayır, imza edir və təsdiq üçün baş mühasibə təqdim edir;
- avans hesabatı təsdiq edildikdən sonra həmin hesabat üzrə təhtəlhesab şəxslə haqq-hesab aparılır. Xarici valyuta ilə təhtəlhesab şəxslərə verilmiş məbləğlər üzrə uçot əməliyyatın aparıldığı tarixə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyənləşdirdiyi məzənnəyə uyğun manatla aparılır;
- təhtəlhesab məbləğlərin avans hesabatı müəyyən olunmuş müddətdə təqdim edilmədikdə və ya istifadə edilməmiş avans qalığı kassaya qaytarılmadıqda bu borclar qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun olaraq avans məbləğini alan şəxsin əməkhaqqından tutulur;
- təşkilatın struktur bölmələri üzrə pul təminatı və əməkhaqqı ödənişinin və digər ödənişlərin aparılması üçün nağd pul həmin struktur bölmələrin rəhbərləri tərəfindən müvafiq etibarnamə verilməklə təyin edilən məsul şəxsə (təhtəlhesab şəxsə) verilir. Məsul şəxs (təhtəlhesab şəxs) pul təminatı, əməkhaqqı və digər ödənişləri üç iş günü müddətində payladıqdan sonra həmin ödənişlər üzrə cədvəlləri və ya digər ilkin uçot sənədlərini struktur bölmə rəhbərləri ilə birlikdə imzalayaraq mühasibatlığa qaytarır;
- təhtəlhesab şəxslərə verilmiş pul vəsaitlərinin istifadəsinə dair ilkin uçot sənədləri ilə birlikdə təqdim olunan avans hesabatları üzrə mühasibat yazılışları (müxabirləşmələr) verilir.

«Təhtəlhesab şəxs» anlayışının tərifi haqqında konkret bir qanuni müddəa mövcud deyildir. Lakin dolayısı ilə qanunvericiliyin müddəalarından belə qənaətə gələ bilərik ki, təhtəlhesab şəxs müəssisənin pulunu rəhbərlik tərəfindən göstərilən istiqamətdə xərcləməyə və bu barədə müvafiq hesabat verməyə borclu olan əməkdaşdır. Kənar, yəni müəssisənin işçisi olmayan şəxs təhtəlhesab şəxs qismində iştirak edə bilməz. «Təht» ərəb mənşəli sözdür və mənası «alt» deməkdir. «Təhtəlhesab şəxs» ifadəsini «hesabat vermək öhdəliyi altında olan şəxs» kimi də qəbul etmək olar. Rus dilində «təhtəlhesab» sözü «podotçotnıe» sözü kimi ifadə edilir. Yəni «pod» sözü «alt» sözünə, «otçotnıe» sözü isə «hesabat» sözünə uyğun gəlir və birlikdə «hesabat altında olan» mənasını verir.

Təhtəlhesab şəxsə nə üçün və ya hansı məqsədlər üçün nə qədər pul verilə bilər? Təhtəlhesab şəxsə müəssisənin fəaliyyəti ilə əlaqədar istənilən məqsəd üçün istənilən qədər, hətta ezamiyyə məqsədləri üçün də normadan artıq pul verilə bilər. Məsələn, mal-materialların alınması, müəssisənin keçmiş borclarının ödənilməsi, bank hesabına pul qoymaq, başqa şəxslərə müəssisənin adından borc vermək, müəssisənin əsas kassası olduğu yerdən kənarda zərurət yarandığı halda işçilərə əmək haqlarının və digər ödənişlərin paylanılması, əhalidən xammalın tədarükü məqsədləri üçün, qəbul edilən xidmətlərin dəyərinin ödənilməsi üçün pul verilə bilər. Xüsusi mülkiyyət növünə malik müəssisələrdə təhtəlhesab şəxsə verilməli olan pulun həddi barədə qanunvericilikdə hər hansı müddəa mövcud deyildir, əsas odur ki, götürülən vəsaitin xərclənmə istiqaməti göstəriş əsasında təyinatı üzrə müəssisənin təsərrüfat fəaliyyəti ilə bağlı olsun və bununla bərabər, vergi ödənişlərinə diqqət yetirilsin.

Bəzi müəssisələrin mühasibat uçotunda kassada (kassa hesabında) pul vəsaitlərinin qalığının olmaması istəyi məqsədilə kassa qalığını təhtəlhesab şəxsin üzərinə keçirmək qərarı verirlər. Belə müəssisələrdə heç kassa da olmaya bilər və nağd pul qalığını bank hesabına qoymadan maddi-məsul şəxsin (məsələn, rəhbərin, menecerin) evində saxlamaqla kifayətlənə bilərlər. Əslində, bu hərəkətləri qanun qadağan etmir. Lakin belə maddi-məsul şəxsi təhtəlhesab şəxs adlandırmaq düzgün deyildir. Çünki pulu saxlanca qəbul edən işçi pulu xərcləmək üçün qəbul etməyib. Deməli, pulun hər hansı bir işçinin maddi-məsuliyyətində saxlanılması, mühasibat uçotu nöqteyi-nəzərindən, əslində, pulun dolayısı ilə kassada saxlanılması kimi qiymətləndirilməlidir və kassa qalığı kimi hesabatlarda əks etdirilməlidir. İşçi o halda təhtəlhesab şəxs statusu alır ki, o, qəbul etdiyi pulları mütləq qaydada xərcləməli olan və maksimum 5 gün ərzində xərclədiyi pullar barədə, xərcləmələr ezamiyyə məqsədli olduqda isə ezamiyyətdən qayıtdıqdan sonra 3 iş günü müddətində hesabatvermə, həmçinin xərclənmədiyi pulları müəssisənin kassasına və ya bank hesabına geriqaytarma öhdəliyi götürən olmalıdır.

Təhtəlhesab şəxs ona avans vermədən, yəni sonradan əvəzini almaq şərtilə müəssisənin xeyrinə xərcləmələrlə bağlı qanunvericilikdə hər hansı qadağa yoxdur. Əsas odur ki, xərcləmələr barədə rəhbərlik tərəfindən göstəriş olsun və xərclər müəssisənin təsərrüfat fəaliyyətinə aid olsun. Belə halda təhtəlhesab şəxs avans hesabatında xərclədiyi vəsaitləri qeyd edir və müəssisədən alacağı vəsaiti tələb edir.

Təhtəlhesab şəxs 5 iş günündən gec mühasibatlığa avans hesabatı verərsə və ya heç verməzsə, bu hal necə qiymətləndirilə bilər? Belə hal baş verərsə, bu, mühasibat uçotu sahəsində qanunvericiliyin tələbinin pozulması kimi qiymətləndirilə bilər və müəssisə və vəzifəli şəxslər inzibati məsuliyyətə cəlb oluna bilər.

Mühasiblərə tövsiyə edilir ki, milli mühasibat uçotu standartlarının tələbini nəzərə alaraq, müəssisənin təhtəlhesab əməliyyatlarının aparılması ilə bağlı uçot siyasətinin yaradılmasına maraqlı olsunlar, yəni bu istiqamətdə uçot qaydaları müəyyənləşdirilsin, həmin uçot qaydalarına əsasən hansı formada təyin olunan hansı işçi hansı sənədləşmə əsasında hansı vaxtlarda, nə qədər məbləğdə, hansı təhtəlhesab əməliyyatları həyata keçirə bilməsi müəyyənləşdirilsin.

# Aztəminatlı ailələrə biznes imkanları yaradılır

**Prezident İlham Əliyevin imzaladığı «Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında» sərəncamla bu sahəyə kömək göstərilməsi məqsədilə 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 6 milyon manat ayrılıb.**

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov sərəncamın detalları ilə bağlı «APA-Economics»ə açıqlama verib. Qeyd edib ki, bir il bundan öncə ünvanlı sosial yardımın verilməsinin müddəti 1 ildən 2 ilə qaldırılıb: «Bu, o deməkdir ki, hətta hər hansı bir ünvanlı sosial yardım təyin olunmasa belə, bu kateqoriyadan olan 120 mindən artıq ailə ən azı bir il ərzində ünvanlı sosial yardım almaqda davam edəcək. Bu müddət ərzində həmin ailələrin əmək-qabiliyyətli üzvlərinin aktiv əmək bazarına cəlb olunması üçün proqramların tətbiqi istiqamətində işlər həyata keçirilməlidir. Ötən il nazirlik Beynəlxalq Əmək Təşkilatının xətti ilə Göyçayda bir pilot layihə, Şamaxıda isə Türkiyənin ITECA təşkilatı ilə bir pilot layihə reallaşdırıb. Göyçaydakı layihədə 21 ailə, Şamaxıdakı layihədə 11 ailə iştirak edib. Onlar iki aylıq tədrisdən sonra özlərinin kiçik biznes planlarını tərtib ediblər və müxtəlif istiqamətlər üzrə ailə-biznes təsərrüfatlarını yaradıblar. Onların arasında heyvandarlıqla, kiçik istilikxanalar təşkil etməklə, kompüter kursları açmaqla, arıçılıqla və sair işlərlə məşğul olmaq istəyənlər var idi. 32 ailənin hər birində bu layihə özünü doğruldub. Ölkə başçısı həmin 6 milyon manatı bunun üçün ayırıb ki, 68 rayonda aztəminatlı ailəyə öz bizneslərini qurmağa yardım edək. Hər rayondan təqribən 20 ailə seçiləcək və bu ailələrin hər birinə təxminən 4000 manat həcmində kiçik bir biznes qurmağa imkanların yaradılması məsələsinə baxılacaq. Bu işdə bizə Beynəlxalq Əmək Təşkilatı (BƏT) ciddi yardım göstərəcək. Artıq təşkilatla danışıqlar aparılıb. Təşkilatın trenerləri ailələrə dərs keçməyə hazırdır. Onların əmək haqlarını da təşkilat özü verəcək. BƏT Azərbaycanda təqribən 136 trener formalaşdırmalıdır. Sonra həmin 136 nəfər 68 rayonun hər birində 20 ailəni seçib öyrədəcək».

Ailələrin seçilməsinə gəlincə, nazir qeyd edib ki, ilk növbədə ünvanlı sosial yardım alan ailələr seçiləcək: «Ünvanlı sosial yardım alan ailələrin 45%-nin tərkibində valideynlərdən biri yoxdur. Onlar bu prosesə cəlb olunmayacaq və ailə müavinəti almağa davam edəcəklər. O cümlədən 18 yaşdan aşağı əlil uşaqları olan ailələrə də müavinətlərin verilməsi davam etdiriləcək. Əmək pensiyaları almaq hüququ olmayan insanlara da ailə müavinətlərinin ödənilməsi davam etdiriləcək. Bundan başqa, övladlarının sayı dörddən çox olan ailələrə də ailə müavinətinin verilməsi davam etdiriləcək. Qalan hissəyə nəzərə salsaq görərik ki, elə ailələr var ki, hər birində ən azı iki nəfər əməkqabiliyyətlidir. Onların öz kiçik təsərrüfatını yaradandan sonra ailə üzvlərinin maddi təminatını təmin etmək imkanları var».

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

## Sadələşdirilmiş vergi ödəyicilərinin NƏZƏRİNƏ!

Sad l dirilmi verginin d yicil ri hesabat r b nd n sonrak ay n 20›d n gec olmayaraq d nm li olan verginin m bl i haqq nda vergi orqan na b yannam verm li v h min m dd td hesablanm vergini d vl t b dc sin d m lidirl r.

Sad l dirilmi vergi d yicisinin bird n art q t ›s rr fat yekti (obyekti) varsa, o, eyni zamanda «Sad l diril mi

Əlavə məlumat üçün «195-1» Çağrı Mərkəzinə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz

Vergilər Nazirliyi

## vergi təqvimi

| APREL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | 1 | 2 | 3 |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 |
| 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 aprel - «(1) və (2)»
20 aprel - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «9», «(9-1)», «10.1», «10.2», «10.3» və «11»

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələrini dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.
Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.
Birinci metod: Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.
İkinci metod: Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.
Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.
Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.
Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidir.
Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**(«1-2») - Gəlir vergisi** (İdman mərc oyunları üzrə): İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.
İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**(«9-1») - Sadələşdirilmiş vergi** (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə): Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.
Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.
Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.
Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.
«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

beynalxalq panoram

# Məşhurların «qara siyahısı»

**Dünyada məşhurların adı yalnız səhnə, ekran, idman meydançası və ya podium qalmaqalları ilə deyil, həm də vergi problemlərinə görə tez-tez gündəmə gəlir. Müşahidələr göstərir ki, Azərbaycan da daxil olmaqla, məşhurların heç də hamısı öz ölkələrinin qanunları ilə hesablaşmırlar. Onlardan bəziləri vergi qaçaqçılığına görə hətta həbsxana həyatı yaşamalı olurlar. «isg-consultut.com» saytı vergidən yayınan məşhurların «top onluğunu» tərtib edib. Həmin siyahıya daxildir:**



**UESLİ SNAYPS**

«Bleyt» filmində baş rolu oynamış bu məşhur aktyor vergi orqanlarına 15 milyon dollar vergi borcuna görə həbsxanaya düşüb. Onun bu hekayəsi «Ulduzlar və vergi» serialının ən qalmaqallı seriyası hesab edilir.

**NİKOLAS KEYC**

Bu Hollivud «ulduzu» da uzun müddət vergidən yayınmağa cəhd edib. Hazırda onun vergi borcunun 14 milyon dollara çatdığı iddia edilir. Lakin Snaypsdan fərqli olaraq, Keyc həbsxanaya düşməmək üçün problemin hüquqi həlli ilə ciddi şəkildə məşğuldur.

**MARK ENTONİ**

Məşhur aktrisa və müğənni Jenifer Lopesin keçmiş əri Mark hələ 2007-ci ildə 2,5 milyon dollar vergi borcuna görə cəzalandırılmışdı. Buna baxmayaraq, hazırda onun 3,4 milyon dollar vergi borcunun olduğu iddia edilir.

**MAYK TAYSON**

Məlum olub ki, məşhur boksçunun vergi orqanları ilə çoxdan problemi var. 2005-ci ildə o, müflis olduğunu bəyan etmiş və o vaxt dövlətə 25 milyon dollar borcu qalmışdı. Mayk Tayson uzun müddət vergi orqanları ilə hesablaşmasa da, sonda bütün borclarını tam şəkildə ödəməyə məcbur olub.

**KRİS TAKER**

Bu məşhur Hollivud aktyorunun indiyə qədər yığılmış vergi borcu 11 milyon dollardan artıqdır.

**LİNDSİ LOHAN**

Tanınmış aktrisa hələ 2009-cu ildə 93,7 min dollar vergi borcuna görə qalmaqal qaldırmışdı. O vaxt iddia edirdi ki, bu borc ona səhv hesablanıb. Keçən il isə Lohan qanunla hesablaşmalı olub və bütün vergi borclarını ödəyib.

**DİEQO MARADONNA**

Yəqin ki, azarkeşlərin yaddaşından ulduz futbolçunun qulağındakı sırğa hələ də çıxmayıb. Lakin yaşıl meydanlarda möcüzə yaratmış argentinalı uzun müddət İtaliya vergi orqanlarının «mənfi qəhrəmanlarından» olmuş, qiymətli sırğası müsadirə edilib. 2012-ci ildə isə məlum olub ki, Maradonanın İtaliya vergi orqanlarına 40 milyon dollar vergi borcu qalıb.

**LUÇANO PAVAROTTİ**

Bu qeyri-adi səs sahibi opera səhnəsində olarkən illik gəliri 60 milyon dollardan az olmayıb. Lakin Pavarotti 6 il dalbadal öz gəlirləri haqqında bəyannaməni düzgün doldurmayıb, vergi borcları 19 milyon dollara çatıb. İtaliya qanunlarına görə, onu həbs cəzası gözləyirdi, lakin borcunun 15 milyon dollarını ödədikdən sonra dünya səviyyəli müğənni həbs cəzasından qurtula bilib.

**SOFİ LOREN**

Zərif xanım olan məşhur aktrisa vergidən yayındığına görə, 17 gün həbsxanada yatmalı olub. Onu yüksək mədəni davranışına görə həbsxanadan azad etsələr də, məhkəmə çəkişmələri illərlə davam edib.

**DOMİNİKO DOLÇE və STEFANO QABBANA**

Bu iki məşhur dizayneri 2014-cü ildə 1 milyard avro məbləğində gəlirlərini vergi orqanlarından gizlətdiklərinə görə ittiham edirdilər. Məhkəmə işindən məlum olub ki, 2004-2005-ci illərdə onlar offşor şirkətləri vasitəsilə öz gəlirlərini gizlədərək vergidən yayınıblar. Milan məhkəməsinin qərarı hər iki dizayner üçün kədərli olub: onlar il yarım azadlıqdan məhrum edilərək həbsxana həyatı yaşamağa məhkum olunublar.

# Hökumətlər vergiləri nəyə xərcləyirlər?

*«IIB Studio» agentliyi bu suala cavab vermək üçün maraqlı araşdırma aparıb*

Məlum olub ki, Avropa Birliyi ölkələrində vergilər əhalinin gəlirinin 20-30 faizini təşkil edir. Almaniya iqtisadiyyatı Avropada daha sosialyönümlü hesab olunur. Ölkədə yığılan vergilərin 3/2-si sosial siyasətə - təhsilə və səhiyyəyə xərclənir. Vergilərin yalnız 20 faizi ekologiyanın, energetikanın və infrastrukturun inkişafına sərf olunur, müdafiə məqsədlərinə isə cəmi 5 faizi yönəldilir.

Danimarkada vəziyyət təxminən Almaniyadakı kimidir. Bu ölkədə vergilər əhalinin gəlirlərinin 39 faizini təşkil edir. Büdcənin 3/2-si sosial proqramlara, 15 faizi iqtisadiyyatın və ekologiyanın dəstəklənməsinə, 5 faizdən azı isə müdafiə kompleksinə yönəldilir.

Avropa İttifaqının digər ölklərində də vergilərin yığılması və xərclənməsi Almaniya və Danimarkadan ciddi şəkildə fərqlənmir. Böyük Britaniyada, Niderlandda, İsveçdə, Yunanıstanda və İtaliyada sosial layihələrə xərclər vergilərin 3/2-sini təşkil edir. Lakin infrastrukturun inkişafı layihələrinə Niderlandda və İsveçdə büdcənin təxminən 25 faizi xərclənir.

Yaponiya iqtisadiyyatında vergilərin xərclənməsi Avropa İttifaqı ölkələrinə yaxındır. Burada əhalinin gəlirlərinin 21 faizi vergi kimi tutulur. Yığılan vergilərin 3/2-si sosial proqramlara, 25 faizi iqtisadiyyatın və ekologiyanın dəstəklənməsinə, 3 faizi isə müdafiə xərclərinə yönəldilir.

Amerika Birləşmiş Ştatları və İsraildə əhalinin gəlirlərinin 15-20 faizi vergi kimi tutulur. Lakin bu ölkələr müdafiə kompleksinə daha çox pul xərcləyirlər: əhalidən tutulan vergilərin təxminən 25 faizi hərbi məqsədlərə yönəldilir. Hər iki ölkədə sosial proqramlar prioritet təşkil edir. ABŞ-ın vergi büdcəsinin 50%-ni, İsrailin isə 45%-ni təhsil və səhiyyə aparır. Araşdırmanın nəticələrinə görə, Britaniya hökuməti vergilərdən hüquq-mühafizə işinin təşkili üçün daha effektiv istifadə edir. Burada büdcənin 2,7 faizi polis xidmətinə yönəldilir və təsadüfi deyil ki, Böyük Britaniyada son 10 ildə cinayətkarlığın səviyyəsi 30 faizdən çox azaıb.

Araşdırmada bildirilir ki, Danimarkada gənc ailələr üçün sosial layihələr daha uğurlu sayılır: vergilərin 8,6 faizi bu sahəyə yönəldilir. Təhsilin səviyyəsi İsraildə daha yüksəkdir. Burada hökumət vergilərdən təşkil olunan büdcənin 16,7 faizini ali təhsil müəssisələrinin saxlanılmasına yönəldir. Buna görə də hazırda İsrail vətəndaşlarının 50 faizdən çoxu ali təhsillidir.

# Estoniyada yük maşınları üçün nəqliyyat vergisi tətbiq ediləcək

İqtisadiyyat və Kommunikasiyalar Nazirliyi çəkisi 3,5 tondan çox olan yük maşınlarına yola sərf edilən vaxta görə nəqliyyat vergisi tətbiq etmək niyyətindədir. Dövlət büdcəsinin tarazlaşdırılması üçün Maliyyə Nazirliyi 2017-ci ildə yollardan istifadə üçün daxilolmalar şəklində 10 milyon avro gəlir əldə etməyi nəzərdə tutur.

Dövlət dəftərxanasının sifarişi ilə «Ernst&Young» şirkəti tərəfindən həyata keçirilən araşdırmalara əsasən, digər ölkələrin analoji vergi dərəcələri əsasında müvafiq hesablamalar aparılıb və yola sərf olunan vaxta görə verginin orta illik məbləği 722 avro müəyyən edilib. Hökumət kabinetinə təqdim edilmiş planda bildirilir ki, gündüz vaxtı üçün biletin dəyəri 12 avrodur.



Tədqiqatları aparan şirkət bütün yol şəbəkəsini vergiyə cəlb etməyi məsləhət görüb, çünki qismən vergitutma zamanı aşağı kateqoriyalı yollara keçid zamanı neqativ nəticənin alınacağı mümkündür. Plana görə, mexanizmin qüvvəyə minməsi əhəmiyyətli xərclər tələb etməyəcək, çünki ödənişlərə nəzarəti yol polis xidməti həyata keçirəcək.

Avropa Birliyi ölkələri müxtəlif nəqliyyat vergisi tətbiq edirlər. Buna görə də Estoniyada hesab edirlər ki, konkret planın hazırlanması üçün Avropa Komissiyası ilə əlavə məsləhətləşmələr aparılmalıdır. Hazırkı hesablamalar yerli daşıyıcıların gündüz vaxtı üçün müəyyən edilmiş ödəmələr üzrə vergiyə cəlb olunması nəzərə alınmaqla aparılıb.

Tədqiqata əsasən, alternativ kimi buraxılış qabiliyyətinə hesablanmış nəqliyyat vergisi və ya minik avtomobillərinə illik verginin tətbiqi də nəzərdən keçirilə bilərdi, lakin nazirlik bu variantları rədd edib.

İlkin tədqiqatlara əsasən, nəqliyyat vasitəsi üçün xərclərin 722 avro artırılması (cəmi 16 mln. avro), yerüstü nəqliyyat üzrə kommersiya fəaliyyəti ilə məşğul olan Estoniya müəssisələrinin ümumi gəlir marjasını 12,8%-dən 11,7%-dək azaldacaq və nəticədə Estoniya Aİ ölkələrinin reytinqində 2 pillə geriyə (15-ci yerdən 17-ci yerə) düşəcək.

AB ölkələri üçün müəyyən edilmiş direktivə əsasən, 12 tondan çox olan yük maşınlarına vergi tətbiq edilməlidir. Estoniyada bu direktivə minimal həcmdə əməl edilir. Estoniya və Finlandiya Avropa Birliyinin yeganə ölkələridir ki, yollardan istifadə üçün nəqliyyata ödəmələr tətbiq edilməyib.

Yollara xidmətə görə əlavə vəsaitlərə ehtiyacın yaranması nəqliyyat vergisinin tətbiqinə zərurət yaradır. 2020-ci ildən Avropa Birliyi fondlarından bu məqsədlə ayrılan vəsaitlər əhəmiyyətli dərəcədə azalacaq. Bundan başqa, dövlət nəqliyyat infrastrukturuna böyük sərmayələr üçün əlavə vəsaitlər əldə etmək istəyir. Avropa Komissiyası, həmçinin, ağır yük nəqliyyatına məcburi vergilərin tətbiqi məqsədilə qanunvericiliyə dəyişikliklər planlaşdırır.

# Xəbər lenti

**ABŞ** Prezidenti Barak Obama bəyan edib ki, şirkətlərin offşor zonalar vasitəsilə vergidən yayınmasının qarşısını alan yeni qaydalar müəyyənləşdirilməlidir.

**Gürcüstan** və **Cənubi Koreya** ikiqat vergitutmanın qarşısının alınması barədə saziş imzalayıblar. Bu saziş iki ölkə üzrə eyni gəlirin vergiyə iki dəfə cəlb olunmasına yol verməmək üçün hüquqi şərtləri müəyyənləşdirir.

**Yeni Zelandiya**da elmi tədqiqat və təcrübə-konstruksiya işləri ilə məşğul olan şirkətlərin vergiyə cəlb edilməsi ilə bağlı qanunda düzəliş olunub. Bu il aprelin 1-dən qüvvəyə minmiş dəyişikliyə əsasən, elmi tədqiqat və təcrübə-konstruksiya sahəsində intensiv çalışan start-ap şirkətlər elmi tədqiqatlar və təkmilləşdirmələr üçün ödədikləri vergiləri geri ala biləcəklər.

**İndoneziya** hökuməti daşınmaz əmlak sahəsində investisiya fondları üçün vergiləri azaltmaq qərarına gəlib. Bununla yerli kommersiya obyektlərindən (ticarət kompleksləri, xəstəxanalar, anbarlar, hotellər və ofis binaları) baza aktivləri kimi istifadənin stimullaşdırılacağı gözlənilir.

**Avropa Birliyi**nin iqtisadi məsələlər üzrə komissarı Pyer Moskovisi bəyan edib ki, transmilli şirkətlər vergiləri pul qazandıqları ölkələrdə ödəməli və vergilərin optimallaşdırılmasının mürtəce sxemlərindən istifadəni dayandırmalıdırlar.

**Yaponiya** və **Belçika** ikiqat vergitutma ilə bağlı sazişdə yeni düzəlişlər aparmaq üçün danışığa başlayıblar. 1970-ci ildə qəbul edilmiş bu sazişə indiyədək 1990-cı və 2013-cü illərdə dəyişikliklər olunub.

krossvord



**Yuxarıdan aşağı:** 1.Mozambikin paytaxtı; 2.Yardımlı rayonunda kənd; 3.Anadolu türkcəsində qızıl; 4.Zavod-fabrik tərəfindən istehsal olunan işləməyən, zay, yararsız cihaz və ya əşya; 5.Arasıkəsilməz və tənzimlənə bilən atom enerjisi almaq üçün qurğular sistemi; 6.Yayla çalınan dördsimli musiqi aləti; 7.Bərk süxur (daş); 13.İspaniyada şəhər; 15.Rəsmi orqanların, yaxud idarələrin siyahısı, reyestri; 16.Rusiyada telekanal; 17.Tropik meyvə; 18.Linqvistikada deyilişi və yazılışı eyni olan, lakin leksik mənalarına görə tamamilə fərqlənən sözlər; 20.Avropa, Asiya və Amerikanın şimalında çətin keçilən iynəyarpaqlı meşələr zonası; 21.Məqsəd, amal. **Soldan sağa:** 1.Rusiya imperator ordusunun artilleriya generalı, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, sovet hərb xadimi; 8.Bağırsağın infeksion xəstəliyi; 9.ABŞ-da ştat; 10.Binanın daxilində üst örtüsü; 11.Mikele Plaçidonun «Sprut» serialında canlandırdığı obraz; 12.Roma siyasi və hərbi xadimi; 14.Üst paltar üçün naxışlı yun parça; 19.Müstəqil dövlət-şəhər və Roma katolik kilsəsinin mərkəzi; 21.RF-nin Komi Respublikasında göl; 22.Şərqşünas, tarixçi, Sovet İttifaqı Qəhrəmanı, əməkdar elm xadiminin adı; 23.Pyeslər, səyahətnamələr, romanlar və şeirlər də yazmasına baxmayaraq, daha çox nağıllarına görə tanınan danimarkalı ədib; 24.Ölkəmizdə fəaliyyət göstərən informasiya agentliklərindən biri; 25.Kosmik aparatlar üçün liman.



*Mikele Plaçidonun «Sprut» serialında canlandırdığı obraz*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Rokoko; 2.Xomeyni; 3.Annan *(Kofi)*; 4.İmanov *(Lütfiyar)*; 6.Antuko; 7.Ucar; 9.Nadir; 13.Jest; 15.Servant; 16.Necati *(Şaşmaz)*; 17.Prelat; 18.Lenotr *(Andre)*; 20.İrbis; 21.Kloun. **Soldan sağa:** 1.Raxmaninov *(Sergey)*; 5.Fa; 8.Kamança; 9.Nicat; 10.Kiyan; 11.Obdorks; 12.Birja; 14.Brass; 19.Eliksir; 21.Korşe; 22.Amba; 23.Eldorado ; 24.İks; 25.Detonator.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan:
AZ 1141, Bakı ş.,
Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 9000

idman

# Güləş üzrə yeni reytinq siyahısı açıqlanıb

Dünya Güləş Birliyi 2016-cı ilin mart ayında keçirilən yarışların nəticəsinə əsasən sərbəst, yunan-Roma və güləşi üzrə yeni reytinq siyahısını açıqlayıb.

Sərbəst güləş üzrə ikiqat dünya çempionu, son Avropa çempionatının bürünc medalçısı Hacı Əliyev (61 kq) öz çəkisində yenidən birinci pillədə yer alıb. Riqada keçirilən son Avropa çempionatının gümüş medalçısı Cəbrayıl Həsənov (74 kq) 5 pillə irəliləyərək 9-cu sırada qərarlaşıb.



Reytinqdəki mövqeyini yaxşılaşdıran daha bir güləşçimiz isə Aleksandr Qostiyevdir (86 kq). Avropa çempionatında qazandığı gümüş medal güləşçimizi 10-cu sıradan 3-cü yerə yüksəldib. Reytinqdə 5-ci yer sahibi Olimpiya çempionu Toğrul Əsgərovun (65 kq) da mövqeyində dəyişiklik olmayıb.

Digər pəhləvanlardan Cəmaləddin Məhəmmədov 5-ci (125 kq), Xetaq Qazyumov (97 kq) 6-cı, Hacımurad Ömərov (70 kq) 12-ci, Nurməhəmməd Hacıyev (86 kq) və Şərif Şərifov (97 kq) 13-cü, Məhəmmədhacı Xatiyev (86 kq) 17-cidir.

Qadın güləşçilərin reytinq sıralamasında 7 Azərbaycan təmsilçisinin adı var. 5-ci dəfə Avropa çempionu tituluna yiyələnən Mariya Stadnik reytinq siyahısında liderliyini möhkəmləndirib. Avropa çempionatının 60 kq çəkidə bürünc medalına yiyələnən Yuliya Ratkeviç 58 kq çəkinin reytinq siyahısında bir pillə yüksələrək 5-ci olub. Ötən ayın reytinq siyahısında 55 kq çəkidə 9-cu mövqedə qərarlaşan Avropa çempionatında 58 kq-da qızıl medal qazanan Nataliya Sinişin 7-ci sıraya yüksəlib. U-23 Avropa çempionatının qalibi Tatyana Omelçenko (60 kq) da reytinqdəki mövqeyini yaxşılaşdırıb. 10 pillə yüksələn Azərbaycan təmsilçisi 9-cu sırada qərarlaşıb.

Azərbaycanın qadın güləşçilərindən ilk iyirmilikdə həmçinin Anjela Doroqan, Alyona Kolesnik və İrina Netreba da yer alıblar. Belə ki, Anjela Doroqan (53 kq) - 8-ci yer, İrina Netreba (60 kq) - 16-cı yer və Alyona Kolesnik (55 kq) - 18-ci yerlərdə qərarlaşıblar.

Yunan-Roma güləşi üzrə reytinq siyahısında 9 idmançımızın adı yer alıb. Son dünya çempionatının qızıl medalçısı Rəsul Çunayev (71 kq) reytinqdə ilk sırada, 59 kq çəki dərəcəsində mübarizə aparan gümüş medalçı Rövşən Bayramov isə ikinci yerdə qərarlaşıb. Reytinq sıralamasında mövqeyi dəyişməyən həm də 5-ci yerdə qərarlaşan Rafiq Hüseynov (80 kq) olub.

Onluğa daxil olan Azərbaycan pəhləvanlarından Həsən Əliyev (66 kq) 9-cu, Elvin Mürsəliyev (75 kq) 8-ci, Saman Təhmasibi (85 kq) 6-cı, 130 kq çəki dərəcəsində Sabah Şəriəti isə 10-cu sıradadır. İlk iyirmilikdə həmçinin Orxan Nuriyev (98 kq) 15-ci yerdə və İslam Abbasov (85 kq) 20-ci yerdə qərarlaşıblar.

# Taekvondoçularımızın Almaniyada uğurlu çıxışı

Taekvondo üzrə böyüklərdən ibarət Azərbaycan yığması Dünya Taekvondo Federasiyası tərəfindən Almaniyanın Bonn şəhərində təşkil edilən G-2 kateqoriyalı «Prezident kuboku» beynəlxalq turnirində uğurla mübarizə aparıb. Yarış Azərbaycanın yığma komandası üçün uğurlu olub.

Ölkəmizi 80 kiloqram çəki dərəcəsində təmsil edən birinci Avropa Oyunlarının və dünya kubokunun qalibi Milad Beigi Hərçəqani bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ilk pilləsinə qalxıb. O, bu uğura görə reytinq hesabına 20 xal yazdırıb. İdmançı, həmçinin, mayda İsveçrədə keçiriləcək Avropa çempionatında yığma komandamız üçün bu çəki dərəcəsində bir lisenziya qazandırıb.

Yarışda digər idmançılarımız də mükafatçılar sırasında yer alıblar. Belə ki, 54 kiloqram çəki dərəcəsində dayanq üzərinə çıxan Məcid Sofiyev və qadın taekvondoçumuz, birinci Avropa Oyunlarının bürünc mükafatçısı və «Rio-2016» Yay Olimpiya Oyunlarında ölkəmizi təmsil edəcək Patimat Abakarova (53 kq) gümüş medala layiq görülüblər.



## İbrahimoviç məhkəmə çəkişməsində

İsveç millisinin və Fransanın PSJ klubunun hücumçusu Zlatan İbrahimoviç məhkəməyə müraciət edib. Bu barədə ulduz futbolçunun vəkili Frederik Boqren açıqlama verib. Onun sözlərinə görə, İsveç yüngül atletika millisinin keçmiş baş məşqçisi Ulf Karlson İbranın idmançı ləyaqətini təhqir etdiyi üçün məhkəməyə şikayət edəcəklər.

Bir müddət əvvəl Karlson məşhur hücumçunun «Yuventus»da oynayarkən qadağan olunmuş maddələrdən istifadə etdiyini iddia etmişdi. Atletika üzrə mütəxəssis hər kəsi inandırmağa çalışmışdı ki, birdən-birə 10 kq əzələ kütləsi toplayan Zlatan bunu xüsusi maddələr olmadan edə bilməz.

Doğrudur, sonradan dediklərinə peşman olan yanlış məlumat verdiyinə görə Karlson ulduz futbolçudan açıq şəkildə üzr istəmişdi, lakin görünür bu, İbrahimoviçi qane etməyib və o, hüquq müstəvisində məsələni həll etməkdə qərarlıdır.




mozaika

## Bədxassəli şişlər məhv edilir

texnologiya

BBC radiostansiyasının xəbərinə görə, Kembric Universiteti kollektivinin nanomühəndisliyin köməyi ilə yaratdığı qızıl və sisplatin dərmanının qarışığı onkoloji xəstələrin müalicəsi üçün geniş tətbiq olunur.

Bu kompozit maddə xərçəngin zədələdiyi zonaya yeridilir, sonra müvafiq toxumalar zəif radiasiya təsirinə məruz qalır. Nəticədə qızılın ayırdığı elektron bədxassəli hüceyrələrin qoruyucu DNT-sini dağıdır və sisplatin işə düşərək zədələnmiş hüceyrələri məhv edir.



Tədqiqatların rəhbərlərindən olan Mark Velland deyib: «Biz laboratoriya şəraitində bədxassəli şişi tamamilə məhv edə bildik və onun təkrar əmələ gəlməsinə imkan vermədik. Qızıl son dərəcə mühüm elementdir, o, insan orqanizmi üçün neytraldır və eyni zamanda nanoəsviyyədə asanlıqla təsirə məruz qalır».

## Kür çayı ciddi çirklənməyə məruz qalır

ekologiya

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamenti Kür və Araz transsərhəd çaylarının çirklənmə vəziyyətini öyrənmək məqsədilə mart ayının üçüncü ongünlüyü üçün növbəti monitorinq keçirib.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, Kür çayında suyun sərfi mart ayının ikinci ongünlüyünə nisbətən saniyədə 8 kubmetr azalıb. Monitorinqin nəticələrinə əsasən, Gürcüstan və Ermənistan ərazilərindən təmizlənmədən birbaşa su obyektlərinə axıdılan məişət tullantıları və sənaye müəssisələrinin çirkab sularının təsiri nəticəsində Kür çayı və onun qollarında biogen maddələrin miqdarı normadan dəfələrlə artıq olub. Suyun tərkibindəki spesifik çirkləndiricilərdən fenollar Şıxlı-2 məntəqəsində 3,7, Ağstafaçayda 3,6, Ağstafaçay su anbarında isə 3,3 dəfə yol verilən qatılıq həddini keçib.

Fenolların Araz çayı üzrə Horadizdə 3,5, Birinci Şahsevəndə 3,3, Bəhramtəpədə isə 3,1 dəfə yol verilən qatılıq həddini keçdiyi müəyyən edilib. Mis birləşmələri isə Kür və Araz çayları üzrə bütün məntəqələrdə norma daxilində tərəddüd edib. Suyun oksigen rejiminin bütün məntəqələrdə sanitar norma daxilində dəyişdiyi qeydə alınıb.



sağlam həyat tərzi

## Pilləkənlərlə qalxmaq...

Konkordiya (Monreal, Kanada) Universitetinin tədqiqatçıları müəyyən ediblər ki, pilləkənlərlə qalxmaq baş beynin qocalması prosesini ləngidir. Fiziki fəallığın bu növündən imtina etmək olmaz, arabir liftə minməyib, piyada qalxmaq daha yaxşı olardı.




Kanada alimləri 19-79 yaş arasında 330 könüllüyə bir neçə mərtəbəni pilləkənlə qalxmağı təklif ediblər. Eksperiment çərçivəsində könüllülərin baş beyni MRT aparatında müayinə edilib və alimlər boz maddənin həcmini ölçüblər. Məlum olub ki, insanlar nə qədər çox piyada gəzib və pilləkənlə qalxırlarsa, baş beyin qocalıqdan bir o qədər çox qorunur. Ona görə də alimlər sinir sisteminin cavan qalması üçün daha çox hərəkət etməyi məsləhət görürlər. İstər yüyürmək, istərsə də fitnes zalında idmanla məşğul olmaq bu işdə yetərlidir. Təmiz havada gəzinti də orqanizmə böyük kömək edir.

## Karyera, xoşbəxtlik və nikah üçün ideal yaş

cəmiyyət

Böyük Britaniya alimləri 2 min nəfərin iştirak etdiyi sorğu vasitəsilə insanın «qızıl yaş» dövrünü müəyyən ediblər. Tədqiqatçılar həyatın müəyyən tərəflərinin özünü qabarıq bürüzə verdiyi vaxtları müəyyən etməyə nail olublar. Məsələn, qadınlar 23 yaşında, kişilər isə 25 yaşında özlərini daha gözəl və cazibədar hiss edirlər. 30 yaşına çatanda öz qayğısına qalmaq fazası başlayır. İntim həyatda xoşbəxtlik 32 yaşda formalaşır, ideal münasibətlər isə təqribən 40 yaşında qurulur. İnsanların əksəriyyəti karyerasında pik həddinə 38 yaşında çatır.

Əgər 20 yaşımızda öz arzularımızdan baş çıxarmağa çalışırıqsa, 30 yaşına yaxın bizdə müəyyən həyati prioritetlər formalaşır. Xoşbəxt ailə qurmaq və karyeraya nail olmaq üçün bu prioritetləri inkişaf etdirmək lazımdır. Psixoloq Donna Douson hesab edir ki, 40 yaş möhkəm münasibətlər qurmaq üçün ideal yaşdır.

**Müdriklər deyib ki...**

*«Elm işıq kimidir, çoxaldıqca qaranlığın ömrü azalır, adamın gözünə nur gəlir».*

*İsmayıl Şıxlı (1919-1995)*

